HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

Vergilər

VERGİLƏR NAZİRLİYİ



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 24 (815) ■ 22 iyun 2016 www.vergiler.az Qiyməti: 55 qəp.

# Bakıda keçirilən Formula-1 Avropa Qran-prisi başa çatıb

## *Azərbaycan Prezidenti Qran-prinin açılış mərasiminə qatılıb və final yarışına baxıb*

***İyunun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Formula-1 Avropa Qran-prisinin açılış mərasimində iştirak edib, sonra isə final yarışına baxıblar.***



Karnaval üslubunda hazırlanan açılış mərasimində Azərbaycan mədəniyyətinin incə koloriti, milli rəqslərimiz və ən əsası da xalqımızın əsrlərdir qoruyub saxladığı simvollar dünya tamaşaçılarına canlı yayımda nümayiş etdirilib. Milli mədəniyyətimizi Formula-1 dəyərləri ilə birləşdirən açılış mərasimində alov, su, külək, irəli və birlikdə rəmz və modellərinin vəhdəti könüllülər, azərbaycanlı sənətçilər, milli qruplar və beynəlxalq ifaçılardan ibarət 626 nəfərlik heyət tərəfindən təqdim edilib.

Açılış mərasimi başa çatdıqdan sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yarışın idarəetmə mərkəzində yaradılan şəraitlə tanış olublar. Dövlətimizin başçısına bildirilib ki, böyük bir ərazini əhatə edən kompleksdə yarışa nəzarət binası, Beynəlxalq Avtomobil Federasiyasının, Formula-1 rəhbərliyinin ofisləri, eləcə də 22 iştirakçının hər biri üçün 2 ədəd olmaqla 44 dayanacaq tikilib. İkinci mərtəbə Paddok klubun üzvləri üçün nəzərdə tutulub. Paddok klubun üzvləri burada pit-stop əməliyyatlarını da rahatlıqla izləyirlər. Yarışın startı və finişi məhz bu ərazidə yerləşir.

Sonra Formula-1 Avropa Qran-prisinin final mərhələsinə start verilib. Bakı Qran-prisində uzunluğu 6 kilometr, 20 çətin döngəsi olan trekdə pilotlar 51 dövrə vurublar. Turnirdə orta sürət saatda 210, maksimum sürət isə 340 kilometr olub. Qeyd edək ki, yarışın ilk günündə əvvəlcə hər biri iki pilotdan ibarət 11 komanda birinci test yürüşünə qatılıb. Pilotlar öz bolidləri ilə 6 kilometrlik Bakı trekində yarışıblar. İlk test yürüşündə «Mercedes»in sürücüsü Luis Hamilton 1 dəqiqə 46 saniyə ilə birinci olub. Onun komanda yoldaşı Niko Rosberq mübarizəni ikinci, Valtteri Bottas üçüncü, Avropa Qran-prisinin rəsmi elçisi Fernando Alonso isə dördüncü yerdə başa vurub. İkinci test yürüşündə də «Mercedes»in pilotu Luis Hamilton birincilik qazanıb.

İyunun 18-də Formula-1 azarkeşləri Avropa Qran-prisinin ikinci günündə də maraqlı idman mübarizəsinin şahidi olublar. Üçüncü test yürüşünə də hər biri iki pilotdan ibarət 11 komanda qoşulub. Bu mərhələni «Mercedes» komandasının britaniyalı pilotu, üççat dünya çempionu Luis Hamilton birinci, onun komanda yoldaşı Niko Rosberq ikinci, «Force İndia» komandasının pilotu Niko Hulkenberq isə üçüncü pillədə başa vurublar. Həmin gün baş tutan sıralama yürüşündə isə «Mercedes» komandasının pilotu Niko Rosberq rəqiblərini qabaqlayaraq finiş xəttinə birinci çatıb. Bununla da Avropa Qran-prisinin iyunun 19-da keçiriləcək final mərhələsində pilotların düzülüşü müəyyən olunub.

Gərgin idman mübarizəsi şəraitində keçən Avropa Qran-prisinin qalibi «Mersedes» komandasının üzvü Niko Rosberq olub. Almaniyalı pilot məsafəni 1 saat 32 dəqiqə 52 saniyəyə qət edib. İkinci yerə «Ferrari» komandasının almaniyalı pilotu Sebastian Fettel çıxıb. Üçüncü yerdə isə «Force İndia» komandasının meksikalı pilotu Serxio Peres qərarlaşıb. Bu, Niko Rosberqin mövsümdə 5-ci, karyerasında isə 19-cu qələbəsidir. Hesabına 25 xal əlavə edən Niko Rosberq ümumi sıralamada liderlik mövqeyini bir qədər də möhkəmləndirib. Niko Rosberqin komanda yoldaşı, britaniyalı Luis Hamilton 117 xalla ikinci yerdə qərarlaşıb. Ümumi hesabda ilk üçlüyü 96 xalla Sebastian Fettel tamamlayıb.

Prezident İlham Əliyev Niko Rosberqə kuboku təqdim edib. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva isə mühəndislər kubokunu «Mercedes» komandasının nümayəndəsinə təqdim edib. İkinci yerin sahibi Sebastian Fettelə və üçüncü yeri tutan Serxio Peresə də kuboklar təqdim olunub. Bununla da Formula-1 üzrə dünya çempionatının 8-ci mərhələsi olan Bakı Avropa Qran-prisi başa çatıb.

# Prezident İlham Əliyev: «Azərbaycan müsəlman aləmində çox böyük nüfuza və hörmətə malikdir»



İyunun 17-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb. Azərbaycan Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib. Müqəddəs Qurani-Kərimdən ayənin oxunması ilə başlayan mərasimdə iştirak edən din xadimləri Azərbaycanda bütün dinlərə geniş şərait yaradıldığını, multikulturalizmin xalqımızın həyat tərzinə çevrildiyini bildiriblər.

Tədbirdə çıxış edən Prezident İlham Əliyev bildirib ki, Azərbaycan müsəlman aləmində çox böyük nüfuza və hörmətə malikdir. Bu yaxınlarda - aprel ayında İslam Əməkdaşlıq Təşkilatının zirvə görüşünün yekunları da bunu bir daha təsdiqləyir. Zirvə görüşündə Azərbaycana çox böyük dəstək verilib. Dövlətimizin başçısı qeyd edib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və aprel hadisələri ilə bağlı Ermənistanın işğalçı və təcavüzkar siyasəti bütün dünya müsəlmanları tərəfindən bir daha pislənildi: «Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kontakt qrupu yaradıldı və bütün müsəlman dünyası öz liderlərinin iştirakı, onların səsi ilə Azərbaycanı bir daha dəstəklədi. Bu, bizim böyük uğurumuzdur. Bu, onu göstərir ki, cəmi 25 il ərzində müstəqil dövlət, o vaxta qədər onilliklər ərzində ateist dövlətdə yaşayan bir xalq - Azərbaycan xalqı bütün müsəlman aləmində çox böyük rəğbətə, hörmətə layiqdir. Biz bunu öz əməyimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Öz dini, milli mənəvi dəyərlərimizə sadiqlik nümayiş etdirərək qazanmışıq. Bu gün bütün beynəlxalq təşkilatlarda müsəlman ölkələri bizi dəstəkləyir, biz onları dəstəkləyirik».

Azərbaycan Prezidenti İslam həmrəyliyinin gücləndirilməli olduğunu xatırladaraq müsəlman aləmində sülhün bərqərar olmasını arzu edib: «Biz istəyirik ki, müsəlman aləmində sabitlik bərpa edilsin, məzhəb əsasında münaqişələrə son qoyulsun və birlik olsun. Əgər birlik olmasa biz güclü ola bilmərik. Azərbaycan öz növbəsində, İslam həmrəyliyinin gücləndirilməsi üçün çox böyük işlər görür və biz bu işləri ardıcıl şəkildə aparırıq. Azərbaycanda İslam Əməkdaşlıq Təşkilatının xətti ilə çoxsaylı yüksək səviyyəli tədbirlər keçirilmişdir. Bakı şəhəri bir neçə il bundan əvvəl İslam mədəniyyətinin paytaxtı elan edilmişdir. 2018-ci ildə Naxçıvan bu şərəfli missiyanı daşıyacaqdır. Azərbaycan İslam dəyərlərini dünyada, xüsusilə Avropada təbliğ etmək üçün çox böyük işlər görür, sərgilər, təqdimatlar keçirir, bədii-musiqi proqramları təşkil edir».

Azərbaycanın Avropa Şurasının üzvü olduğunu deyən Prezident İlham Əliyev ölkəmizi istəməyən bəzi qüvvələrin təxribatlarına baxmayaraq, həmin təşkilatda da böyük hörmət qazandığımızı bildirib: «Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı, Ermənistanın işğalçı siyasətini pisləyən qətnamələr artıq Avropa Şurasında da qəbul edilir. Bu, doğrudan da nadir bir vəziyyətdir. Çünki dünyada hər iki təşkilata üzv olan ölkələrin sayı o qədər də çox deyil və hər iki təşkilatda rəğbət, dəstək qazanmaq, əlbəttə ki, bizim böyük uğurumuzdur. Biz bunu nəyin hesabına qazanmışıq? Hesab edirəm ki, səmimi siyasətimizə görə. Ona görə ki, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Ona görə ki, biz sözümüzü imzamız qədər qiymətləndiririk və əgər nəyisə deyiriksə, buna əməl edirik. Heç vaxt yalançı vədlər verməmişik. Heç vaxt kiminsə xoşuna gəlmək üçün hər hansı bir addım atmamışıq. Prinsipial mövqeyimizi nümayiş etdirmişik».

Dövlətimizin başçısı qeyd edib ki, indiki şəraitdə, dünyada gedən çox ağır proseslər şəraitində, əlbəttə ki, Azərbaycan nümunəsi özünü daha da gözəl şəkildə büruzə verir: «Bu gün Azərbaycan çox fərqli bir inkişaf modelini nümayiş etdirir. Ona görə yox ki, biz kiməsə nəyisə sübut etmək istəyirik. Sadəcə olaraq, bizim həyat tərzimiz belədir. Bizim siyasətimiz bundan ibarətdir. Getdikcə Azərbaycanı dünyada daha da çox tanıyırlar. Tanıdıqca da görürlər ki, bu gün dünyada, bu coğrafiyada müasir, öz gücünə güvənən, ayaqda möhkəm dayanan, prinsipial siyasət aparan, bütün azadlıqları, bütün dinlərin birgə yaşamasını təmin edən bir ölkə var. Ona görə, əlbəttə ki, bizim təcrübəmiz öyrənilir. Bizi istəyən, dəstəkləyən ölkələr, qüvvələr bizi daha da dəstəkləyirlər, bizi istəməyənlər daha da məyus olurlar».

# Paytaxt qəsəbələri sürətlə inkişaf edir

## *Dövlətimizin başçısı Maştağa-Bilgəh yolunun, Nardarandakı Abşeron və Nəsrulla Əsgərov küçələrinin açılışında iştirak edib*

İyunun 21-də Prezident İlham Əliyev Sabunçu rayonu ərazisində əsaslı şəkildə yenidən qurulan Maştağa-Bilgəh yolunun, həmçinin Nardaran qəsəbəsində Abşeron və Nəsrulla Əsgərov küçələrinin açılışında iştirak edib.

Dövlətimizin başçısına rayon ərazisində həyata keçirilən yol-tikinti işləri barədə məlumat verilib. Bildirilib ki, əsaslı şəkildə yenidən qurulan Maştağa-Bilgəh avtomobil yolu 63 min nəfər əhalinin yaşadığı 3 qəsəbəni birləşdirir. Uzunluğu 9 kilometr olan bu yolun hərəkət hissəsinin eni əvvəllər 7 metr idi, hazırda isə 9,5 metrə qədər genişləndirilib. Avtomobil yolunun kənarlarında 1 və 2 metr enində səkilər tikilib, yeni işıq dirəkləri və yol nişanları qoyulub. Bu yolun yenidən qurulması ilə nəqliyyat vasitələrinin inşası davam edən Dənizkənarı dairəvi və Zabrat-Maştağa-Buzovna avtomobil yollarına rahat və maneəsiz çıxışı təmin olunub.



Prezident İlham Əliyevə Nardaran qəsəbəsindəki Abşeron və Nəsrulla Əsgərov küçələrinin yenidən qurulması layihəsi barədə də məlumat verilib. Bildirilib ki, 2360 metr uzunluğunda olan yolun eni genişləndirilərək dördzolaqlı olmaqla 18 metrə çatdırılıb. Küçəboyu hər iki istiqamət üzrə 2 metr enində yeni səkilər tikilib. Abşeron və Nəsrulla Əsgərov küçələrinin kəsişməsində yeni dairə inşa olunub. Nardaran qəsəbəsinin mərkəzindən Rəhimə xanım ziyarətgahına qədər 1050 metr uzunluğunda Nəsrulla Əsgərov küçəsinin eni əvvəllər 6 metr olub. Layihə çərçivəsində yolun eni genişləndirilərək 16 metrə çatdırılıb. İkitərəfli işıqlandırma dirəkləri quraşdırılaraq tam yeni müasir yol infrastrukturu yaradılıb. Hazırda bu küçə 2 gediş və 2 gəliş olmaqla 4 hərəkət zolağından ibarətdir. Burada hər iki istiqamət üzrə 2 metr enində yeni səkilər tikilib. Rəhimə xanım ziyarətgahının qarşısında avtomobillər üçün dayanacaq da yaradılıb.

Azərbaycan Prezidentinə hazırda inşası davam etdirilən Ramana-Maştağa avtomobil yolu ilə bağlı da məlumat verilib. Dövlətimizin başçısı Nardaran qəsəbəsindəki «Rəhimə Xanım» məscid-ziyarətgah kompleksi ilə tanış olub, qəsəbə sakinləri ilə görüşüb. Bakının qədim yaşayış məskənlərindən olan Nardaran qəsəbəsi sakinlərinin daim dövlətçiliyə sadiq olduqlarını bildirən Azərbaycan Prezidenti ölkəmizdə bütün azadlıqların, o cümlədən din azadlığının tam təmin edildiyini diqqətə çatdırıb. Bu sahədə Azərbaycanın əldə etdiyi nailiyyətlərin beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirildiyini bildirən prezident İlham Əliyev qeyd edib ki, qəsəbə sakinləri də ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsi işinə töhfə verirlər. Bakı qəsəbələrinin, o cümlədən Nardaranın sosial-iqtisadi inkişafı ilə bağlı tədbirlər bundan sonra da davam etdiriləcəyini bəyan edən dövlətimizin başçısı yeni iş yerlərinin açılmasının vacibliyini də vurğulayıb. Sakinlər göstərdiyi yüksək diqqət və qayğıya görə nardaranlılar adından Azərbaycan Prezidentinə minnətdarlığını bildiriblər.

# Vergilər naziri Fazil Məmmədov Qusarda vətəndaşları qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdığı problemlərin həllinə köməklik göstərirlər.**

İyun ayının 17-də vergilər naziri Fazil Məmmədov Qusar şəhərində Qusar, Quba və Xaçmaz rayonlarından olan vətəndaşları qəbul edib. Qəbulda Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər, vergilərin hesablanması, ödənilməsi, əmək müqavilələrinin bağlanması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarına işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gəlinən müxtəlif çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətlərinə baxılıb.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunub, müraciətlərin bir qismi nəzarətə götürülüb, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razılıqlarını bildiriblər.

# Vergi orqanları əməkdaşlarının bilik və bacarıqları sertifikatlaşdırılır

***Vergilər Nazirliyində dövlət vergi orqanlarının vəzifəli şəxslərinin, habelə dövlət vergi orqanlarına staj və sınaq müddətinə işə qəbul olunmuş şəxslərin fəaliyyət sahələri üzrə bilik və bacarıqlarının sertifikatlaşdırılması prosesinə başlanılıb. Məqsəd dövlət vergi orqanlarında çalışan əməkdaşların müvafiq fəaliyyət sahələri üzrə bilik və bacarıqlarının qiymətləndirilməsidir.***

Sertifikatlaşdırma məcburi və könüllülük prinsipləri əsasında həyata keçirilir. Əməkdaşların hazırda çalışdıqları fəaliyyət sahəsi üzrə sertifikatlaşdırma məcburi, digər fəaliyyət sahələri üzrə isə könüllüdür. Sertifikatlaşdırma prosesində əməkdaşların bilik və bacarıqlarının təkmilləşdirilməsi üçün iki mərhələdə təlimlər aparılır. 1-ci mərhələdə «Vergi qanunvericiliyi» bloku üzrə təlimlər Vergilər Nazirliyinin elektron kitabxanasının «Onlayn təlim» sistemi vasitəsilə distant formada iş yerindən ayrılmadan, 2-ci mərhələdə isə «Vergi inzibatçılığı» bloku üzrə təlimlər əyani formada nazirliyin Tədris Mərkəzində təşkil edilir.

Hər bir təlim blokunun sonunda bilik və bacarıqların qiymətləndirilməsi üçün imtahan keçirilir. Təlimin 1-ci mərhələsi üzrə imtahan nəticəsi 70%-dən aşağı olan şəxslər 2-ci mərhələyə buraxılmır və növbəti 10 gün ərzində təkrar imtahan vermək üçün onlara imkan yaradılır. 2-ci mərhələdə 70%-dən aşağı nəticə göstərən şəxslərə 1 ay vaxt verilir və təkrar imtahanda iştirak etmək üçün onlara daha bir imkan yaradılır. İmtahanların yekun nəticəsinə görə sertifikatın növü müəyyən edilir. Qaydalara əsasən, imtahanların yekun nəticəsinə görə 91-100% nəticə göstərmiş əməkdaşa 1-ci dərəcəli, 81-90% nəticə göstərmiş əməkdaşa 2-ci dərəcəli, 70-80% nəticə göstərmiş əməkdaşa isə 3-cü dərəcəli sertifikat verilir.

Məcburi sertifikatlaşdırmada iştirak edərək imtahanın nəticələrinə görə sertifikat ala bilməyən əməkdaşlar barədə isə mövcud qaydalara uyğun olaraq, Vergilər Nazirliyinin Attestasiya Komissiyası və nazirliyin rəhbərliyi tərəfindən müvafiq qərar qəbul edilir.

May ayından başlayaraq, «Operativ vergi nəzarəti», «Vergi ödəyicilərinin uçotu və qeydiyyatı» və «Vergi borclarının alınması» sahələri üzrə sertifikasiya təlimlərinə start verilib və fəaliyyət sahələri üzrə test üsulu ilə imtahanlar keçirilib. «Vergi ödəyicilərinin uçotu» fəaliyyət sahəsi üzrə 7, «Operativ vergi nəzarəti» fəaliyyət sahəsi üzrə 26, «Vergi ödəyicilərinin qeydiyyatı» fəaliyyət sahəsi üzrə isə 9 əməkdaş yekun imtahan nəticələrinə görə sertifikat əldə edib. Onlardan 17 nəfəri 1-ci dərəcəli, 21 nəfəri 2-ci dərəcəli, 4 nəfəri isə 3-cü dərəcəli sertifikata layiq görülüb.

Yaxın zamanlarda digər fəaliyyət sahələri üzrə sertifikatlaşdırma təlimlərinə başlanacaqdır.

# May ayında vergi ödəyicilərinə göstərilmiş xidmətlər

**Vergilər Nazirliyinin Çağrı Mərkəzinin əməkdaşları tərəfindən canlı əlaqə zamanı 20077 sual xarakterli müraciət cavablandırılmışdır**




# Azərbaycan Mətbuat Şurasının və Vergilər Nazirliyinin «Azərbaycanın vergi sistemi yeni iqtisadi inkişaf mərhələsində» mövzusunda fərdi yazı müsabiqəsinin ELANI

Müsabiqənin məqsədi Azərbaycanın müasir vergi sistemi ilə bağlı məlumatların cəmiyyətə çatdırılmasında vətəndaş və jurnalist yaradıcılığını stimullaşdırmaqdır.

**Müsabiqəyə təqdim olunacaq yazıların mövzu istiqamətləri**

1. Yeni iqtisadi inkişaf modelinin formalaşmasında vergi siyasətinin rolu;
2. Vergi təbliğatı: dövlət tərəfindən müəyyən edilmiş vergiləri ödəmək hər kəsin Konstitusiya borcudur;
3. Dövlət və vergilər: dövlət büdcəsinə ödənilən vergilər nəyə xərclənir?;
4. Vergidən yayınma nə ilə nəticələnə bilər və bu, hansı məsuliyyət yaradır?;
5. Vergi sisteminin və sahibkarlıq subyektlərinin fəaliyyətinin şəffaflaşdırılması;
6. Vergi ödəyicilərinə xidmətlər biznesin idarə edilməsinin asanlaşdırılması vasitəsi kimi;
7. Elektron vergi xidmətlərinin tətbiqi innovativ islahatların «açarı» kimi;
8. Nağdsız ödənişlərin stimullaşdırılmasının vergi daxilolmalarının artmasına təsiri.

**II. Müsabiqəyə təqdim olunmuş yazıların mükafatlandırılması**

I yer - 1000 manat (1 mükafat)
II yer - 800 manat (2 mükafat)
III yer - 500 manat (2 mükafat)
Həvəsləndirici mükafat - 200 manat (5 mükafat)

**III. Müsabiqənin şərtləri**

Müsabiqəyə təqdim olunmuş yazılarda aşağıdakılara üstünlük veriləcək:

1. Materialların mövzunu, konkret olaraq nəzərdə tutulan istiqaməti dolğun əhatəetmə səviyyəsi;
2. Faktlardan istifadə xüsusiyyətləri və araşdırmanın keyfiyyəti;
3. İfadə vasitələrinin zənginliyi;
4. Oxucu üçün informasiyalılıq dərəcəsi;
5. Qabaqcıl dünya təcrübəsi ilə məzmunlu müqayisə.

Müsabiqəyə 2016-cı ilin may ayının 25-dən iyul ayının 15-dək müddətdə qəzet, jurnal və informasiya agentliklərində, həmçinin xəbər saytlarında gedən yazılar buraxılacaq.

Qaliblərin adları 2016-cı ilin iyul ayında - Milli Mətbuat Günü ərəfəsində açıqlanacaq.

Müsabiqə üçün dil və janr məhdudiyyəti nəzərdə tutulmur.

Yazılar 9-11 min işarədən (1 A3 formatlı qəzet vərəqindən) çox olmamalıdır.

Yazıda «Yazı Mətbuat Şurasının və Vergilər Nazirliyinin «Azərbaycanın vergi sistemi yeni iqtisadi inkişaf mərhələsində» mövzusunda fərdi yazı müsabiqəsinə təqdim olunmaq üçün verilir» qeydi olmalıdır.

Qeyd: Azərbaycan Mətbuat Şurasının «qara siyahı»sında yer alan kütləvi informasiya vasitələrində dərc olunan yazılar müsabiqəyə qəbul edilmir.

**IV. Yazıların qiymətləndirilməsi**

Müsabiqəyə qəbul olunmuş materiallar Vergilər Nazirliyi və Mətbuat Şurasının müəyyən etdiyi xüsusi komissiya tərəfindən qiymətləndiriləcək.

**V. Yazıların təqdim edilməsi**

Müsabiqə üçün yazılar ayrıca zərfdə təqdim olunmalıdır.

Yazıya aşağıdakı materiallar da əlavə edilməlidir:

- yazı təqdim edən şəxsin harada işlədiyini təsdiqləyən sənədin surəti;
- yazı təqdim edən şəxsin şəxsiyyət vəsiqəsinin surəti;
- yazı təqdim edən şəxsin əlaqə vasitələri - ev, iş və mobil telefonunun nömrəsi;
- müsabiqə üçün verilmiş yazının getdiyi qəzet və jurnalın 1 nüsxəsi (ayrıca vərəqədə);
- yazı elektron media resursunda verilibsə, bunu təsdiqləyən link (ayrıca vərəqədə);
- materialın yazılı formada A4 formatlı kağız vərəqində 3 nüsxəsi;
- diskdə materialın elektron forması (Times New Roman şriftində, müəllifin adı qeyd olunmamaqla);
- yazı elektron media resursunda verilibsə, diskdə yazının linki göstərilməlidir.

Müsabiqə üçün yazılar may ayının 25-dən iyul ayının 15-dək həftənin iş günləri saat 11.00-dan 17.00-dək Bakı şəhəri, Məmməd Araz küç., 4 ünvanında (əvvəlki Teymur Əliyev küç., 38 - Azərbaycan Mətbuat Şurasının ofisi) və Bakı şəhəri, Ə.Haqverdiyev küç., 60 ünvanında qəbul ediləcək.

Təqdimat prosesində müsabiqə qaydalarının hər hansı birinin yerinə yetirilməməsi qaydaların pozulması kimi qiymətləndiriləcək və yazı qəbul edilməyəcək.

**Əlaqə telefonları:**
(+99412) 441 35 30, (050) 534 93 26, (055) 201 99 26,
(+99412) 403 87 90, (050) 254 25 52,
(+99412) 403 87 88, (050) 254 02 62

**Məsul əlaqələndiricilər:**
Əvəz Rüstəmov (Mətbuat Şurası),
Rövşən Məmmədov (Vergilər Nazirliyi)
Şahin Məmmədov (Vergilər Nazirliyi)

# «ASAN xidmət indeksi» əsasında qiymətləndirmə

Prezident İlham Əliyevin bu günlərdə imzaladığı fərmana əsasən, Azərbaycanda mərkəzi və yerli icra hakimiyyəti orqanlarının fəaliyyət istiqamətlərinə və səlahiyyətlərinə uyğun olaraq göstərdikləri elektron xidmətlər Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən «ASAN xidmət indeksi» əsasında qiymətləndiriləcək. Sənəddə qeyd edilir ki, agentlik dövlət qurumlarının göstərdikləri xidmətlərlə bağlı daxil olan müraciətləri aidiyyəti üzrə müraciətə baxan subyektlərə göndərilməsini və onlar tərəfindən cavablandırılmasını elektron reyestr vasitəsilə təşkil etməlidir. Bu zaman «ASAN xidmət indeksi»ni təşkil edən parametrlər rəhbər tutulmaqla, həmin xidmətlərin qiymətləndirilməsi həyata keçiriləcək. Bu parametrlərə - xidmət barədə məlumatlandırma (xidmət üçün tələb olunan sənədlər və xidmət haqları barədə məlumatlandırma, sorğu xidmətinə edilən müraciətlərin cavablandırılma operativliyi və s.), xidmətə müraciət imkanları (elektron, poçt, birbaşa), xidmətin göstərilmə müddəti, xidmətin təşkilində istifadə edilən informasiya ehtiyatlarının elektronlaşdırılması və digər dövlət orqanlarının informasiya sistemləri ilə inteqrasiyası, xidmətlərin təşkili ilə bağlı əməkdaşlara təlim keçilməsi, şikayət və nəzarət mexanizmləri, vətəndaş məmnunluğunun ölçülməsi mexanizmləri daxildir. Agentlik, eyni zamanda, hər bir xidmət üzrə «ASAN xidmət indeksi»nin elektron reyestrdə yerləşdirilməsini təmin edəcək və dövlət xidmətlərinin «ASAN xidmət indeksi» üzrə qiymətləndirilməsi qaydalarını müəyyənləşdirəcək.




Sənədə əsasən, dövlət xidmətləri barədə məlumatlandırmanın vahid mənbədən həyata keçirilməsi və dövlət xidmətləri barədə məlumatların mütəmadi yenilənməsini təşkil etmək məqsədilə mərkəzi və yerli icra hakimiyyəti orqanları öz rəsmi internet-informasiya ehtiyatlarında dövlət xidmətləri bölməsi yaratmalıdır. Həmin bölmədə müvafiq dövlət xidmətləri barədə elektron reyestrdəki məlumatlara keçidin yerləşdirilməsi və elektron xidmətlərin bu bölmədən həyata keçirilməsi oktyabrın 1-dək təmin olunmalıdır.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ülvi Mehdiyev jurnalistlərə açıqlamasında bildirib ki, bu fərman sırf dövlət orqanlarının göstərdikləri xidmətlərin qiymətləndirilməsi ilə bağlıdır: «Qiymətləndirmə nəticəsində həmin xidmətlərin vətəndaşlar üçün nə dərəcədə əlverişli olması müəyyənləşəcək, əgər çatışmazlıqlar varsa, həmin xidmətlərin daha əlçatan, şəffaf olması barədə təkliflər hazırlanacaq və bununla bağlı hesabat ölkə başçısına təqdim ediləcək».

**AYTƏN**

# Vergi Ombudsmanı həm ödəyicilərin, həm də dövlətin maraqlarını qorumalıdır



*«Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün Strateji Plan»ın 6.5-ci bəndinə əsasən, ölkəmizdə vergi ödəyicilərinin hüquqlarının qorunması məqsədilə Vergi Ombudsmanı institutunun yaradılmasına dair beynəlxalq təcrübənin öyrənilməsi nəzərdə tutulub. İyunun 13-15-də TAİEX Ekspert missiyası çərçivəsində Vergilər Nazirliyində olan Portuqaliya Respublikasının Ombudsman Aparatının koordinatoru xanım Elsa Heniriques Diasın Avropa Komissiyasının dəstəyi ilə «Vergi ödəyicilərinin hüquqlarını qoruyan müstəqil vergi institutunun yaradılması» mövzusunda keçirdiyi seminar da bu planın tərkib hissəsidir. Xanım E.H.Dias tədbirdə vergi ödəyicilərinin hüquqlarının qorunmasında Avropa İttifaqına üzv ölkələrin təcrübəsi, ombudsmanın fəaliyyətini tənzimləyən qanunvericilik aktları, şikayətlərin idarə edilməsi sistemi, illik hesabatlar və digər mövzular üzrə təqdimatla çıxış edib. E.H.Dias ilə müsahibəni təqdim edirik.*

***- Vergi Ombudsmanı institutu nədir, bu qurumun əsas hüquq və vəzifələri nədən ibarətdir?***

- Vergi Ombudsmanı institutu deyildikdə, əsasən, iki anlayış nəzərdə tutulur: birincisi, ölkənin vergi administrasiyasından və Ombudsman Aparatından ayrıca fəaliyyət göstərən qurum; ikincisi, ölkədə mövcud olan Ombudsman Aparatının tərkibində vergi ödəyicilərinin hüquqlarını qoruyan struktur. Avropa İttifaqı ölkələrində xüsusi Vergi Ombudsmanı deyilən institut formalaşmayıb, Ombudsman Aparatının tərkibində vergi ödəyicilərinin hüquqlarını qoruyan struktur modeli tətbiq olunur və uğurlu nəticələri vardır.

Vergi məsələləri üzrə ombudsmanın fəaliyyətinin əsas prinsiplərinə gəlincə, başlıca məqsəd və vəzifə vergi ödəyicilərinin hüquqlarının daha etibarlı qorunmasını təmin etmək, onların şikayət və müraciətlərinin məhkəmə müstəvisinə çıxmadan həllinə nail olmaq, vergi administrasiyaları ilə münasibətlərin sivil formada tənzimlənməsinə kömək göstərməkdir.

***- Portuqaliya Respublikasında Ombudsman institutu vergi ödəyicilərinin hüquqlarının qorunması sahəsində hansı işləri görür?***

- Ölkəmizdə vergi ödəyicilərinin hüquq və mənafelərinin qorunması Ombudsman institutunun yanında fəaliyyət göstərən qurum tərəfindən təmin olunur. Bu qurum ilk növbədə vergi ödəyicilərindən daxil olan şikayətləri qəbul edir, xüsusilə də vergi orqanı əməkdaşlarının onların fəaliyyətinə yaratdığı problemlərlə bağlı müraciətlər araşdırılır. Vergi administrasiyasının bu məsələ ilə əlaqədar mövqeyi öyrənilir, şikayətin hərtərəfli araşdırılması təmin edilir. Bundan sonra obyektiv və ədalətli qərar çıxarılır. Hansı tərəfin haqlı olub-olmasından asılı olmayaraq verilən qərar ümumilikdə obyektiv araşdırma nəticəsində müəyyən olunur. Burada vergi ödəyicisi də haqlı ola bilər, vergi orqanı da. Bundan başqa, Portuqaliyanın təcrübəsində daha bir fəaliyyət mexanizmi də var. Ombudsmanın vergi məsələləri üzrə təcrübəli nümayəndəsi vergi ödəyicisinin şikayəti olmadan da bu və digər məsələ barədə araşdırma aparıb həmin sahədə vəziyyəti araşdırmaq səlahiyyətinə malikdir. Yəni ombudsman institutunun nizamnaməsi və ölkə qanunvericiliyi bu qurumun əməkdaşına öz təşəbbüsü ilə spesifik bir sahədə sahibkarların fəaliyyətinə müdaxilənin olub-olmamasını müəyyən etməyə imkan verir.

***- Vergi ombudsmanı müstəqil dövlət qurumu kimi hansı ölkələrdə fəaliyyət göstərir?***

- Aİ ölkələrinin əksəriyyətində bu qurumlar tabeçilik əsasında fəaliyyət göstərir. Amma bu, nisbi tabeçilikdir. Ombudsman Aparatının tabeliyində olan maliyyə, vergi və digər iqtisadi bölmələrlə bağlı yaradılmış strukturlar geniş və hərtərəfli araşdırma aparır. Bununla yanaşı, ictimai təşkilatlarla birgə əməkdaşlıq çərçivəsində vergi məsələləri ilə məşğul olan qurumlar da fəaliyyət göstərir. Bunun ən yaxşı forması Böyük Britaniyada yaradılıb. Bu ölkədə ayrıca vergi ombudsmanı yaradılmasa da, ümumi Ombudsman Aparatının tərkibində ən fəal bölmə kimi diqqəti cəlb edir. Müstəqil Vergi Ombudsmanı institutu isə Kanada və Cənubi Afrika Respublikasında yaradılıb. Onun vergi administrasiyasına heç bir aidiyyəti yoxdur.

***- Azərbaycanda vergi ombudsmanının yaradılması üçün hansı işlərin görülməsini vacib hesab edirsiniz?***

- Azərbaycan dövlətinə bu sahədə konkret yol göstərə bilmərəm. Amma tövsiyə edərdim ki, ölkədə hazırda fəaliyyət göstərən Ombudsman Aparatının nəzdində şöbə və yaxud departament yaradılsın. Çünki müstəqil Vergi Ombudsmanı institutunun təsis olunması bir çox baxımdan məqsədəuyğun deyil. Müstəqil bir qurumun yaradılması üçün işçi və kadr bazası lazımdır, bu isə qurumun saxlanması və idarə olunmasına dövlətin əlavə xərclər çəkməsi deməkdir. Bu, dövlətin hər il inzibati və texniki xərclərlə yanaşı, idarəetmə sistemində müəyyən problemlərlə yüklənməsinə səbəb ola bilər. Ona görə də Aİ-nin mövcud təcrübəsinin öyrənilməsi və tətbiq olunması arzuolunandır. Azərbaycanda bir neçə ildir ki, Ombudsman Aparatı yaradılıb, onun tərkibində vergi məsələləri üzrə şöbə yaratmaqla məsələni həll etmək olar. Avropa ölkələrində olduğu kimi, qanunvericilik aktlarına da bəzi dəyişikliklərin edilməsi zəruridir.

***- Vergi ombudsmanı vergilərin könüllü ödəmə səviyyəsinin yüksəldilməsi və vergidən yayınmanın qarşısının alınmasında hansı rol oynaya bilər?***

- Belə bir qurumun fəaliyyətə başlaması Azərbaycanın vergi sisteminə bir neçə baxımdan fayda verə bilər. İlk növbədə, vergi ödəyicilərinin hüquq və manafelərinin etibarlı qorunması baxımından aparılan işlərə öz töhfəsini verə, vergi orqanlarının işini yüngülləşdirə bilər. Eyni zamanda, vergi ödəyicilərinin intizamının gücləndirməsi və vergiləri vaxtında və tam şəkildə ödəməsi baxımından da bu institutun rolu böyükdür. Çünki vergi ombudsmanının cəmiyyətdə böyük nüfuzu və peşəkarlığının olması ona inamı artırır. Dövlətin özünün bu qurumun mütəxəssislərindən gözləntiləri çoxdur və onun verdiyi rəyə hörmətlə yanaşılır. Bu təşkilatın əməkdaşları ilə vergi ödəyiciləri arasında ünsiyyət dərin olduğundan onların üzərinə böyük məsuliyyət düşür. Ombudsman sahibkarlara öz hüquq və öhdəliklərini yerinə yetirmək, dövlətin müəyyən etdiyi qanunların tələblərinə riayət etmək, dövlət büdcəsinə vergilərin vaxtında ödənilməsi üçün onların məsuliyyətini başa salmaq və digər müxtəlif təşviqat işləri görmək, məsləhət və tövsiyələr vermək səlahiyyətlərinə də malikdir. Təbii ki, ödəyicilərlə aparılan söhbətlərdə onlara vergilərin könüllü ödənilməsi, vergidən yayınmanın dövlət və cəmiyyət, sahibkarın özü üçün hansı pis nəticələrə səbəb olması düşüncəsi aşılanmalıdır.

***- TAIEX texniki yardım çərçivəsində Azərbaycanın vergi sistemində digər hansı layihələrin həyata keçirilməsinə ehtiyac vardır?***

- Mən iki ilə yaxındır ki, Portuqaliya Ombudsman institutunda TAIEX layihələrinə cəlb olunmuşam və layihənin səmərəliliyini yüksək dəyərləndirirəm. Bu proqram vergi sisteminin inkişafında mühüm rol oynaya bilər. Layihədə iştirak edən ölkələr dünya ölkələrinin tətbiq etdiyi qabaqcıl təcrübənin öyrənilməsi və milli vergi qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırılması, vergi sisteminin təkmilləşdirilməsi sahəsində yaxşı imkanlar əldə edirlər. Bu təşkilatın həyata keçirdiyi müxtəlif iqtisadi alətlərin, vergi, maliyyə, iqtisadi idarəetmənin və inzibatçılığın təkmilləşdirilməsi ilə əlaqədar layihələrin vergi administrasiyasında çalışanların bilik və bacarıqlarının, təcrübəsinin yüksəldilməsi baxımından əhəmiyyəti böyükdür. Birgə təlimlər zamanı vergi orqanı əməkdaşları xarici ölkələrin vergi sistemindəki yeniliklər barədə ətraflı məlumatlar əldə edir, zəruri təcrübə qazanırlar. Bu baxımdan, Azərbaycanın vergi işçilərinin TAIEX alətindən faydalanacağına inanıram.

TAIEX aləti çox geniş sahələri əhatə edir. Avropa İttifaqının dəstəklədiyi bu yardım aləti vergi sistemi ilə yanaşı, gömrük, maliyyə, bank, sığorta, qiymətli kağızlar, kommunikasiya, nəqliyyat, ticarət sahələrində ən mütərəqqi naliyyətlərin, yeniliklərin öyrənilməsi və tətbiqini nəzərdə tutur. Məqsəd Azərbaycanın bu sahələr üzrə qanunvericiliyinin Avropa İttifaqı ölkələrinin qanunvericiliyinə uyğunlaşdırılmasıdır. İndiyədək Azərbaycan bu istiqamətdə mühüm irəliləyişlər əldə edib, inanıram ki, müəyyən edilmiş hədəflərə uyğun olaraq digər sahələrdə də islahatlar davam etdiriləcək.

***- Portuqaliya Vergi Administrasiyası ilə Azərbaycanın Vergilər Nazirliyi arasında ikitərəfli əməkdaşlıq çərçivəsində hansı işlərin görülməsi nəzərdə tutulur?***

- Portuqaliya elektron xidmətlər və vergi əməliyyatlarının internet vasitəsilə aparılması sahəsində böyük təcrübəyə malikdir. Əldə etdiyim məlumatlara görə, Azərbaycanın vergi sistemində bu təcrübədən geniş istifadə olunub. Həmçinin, bizim ölkənin vergi xidməti orqanı vergi ödəyiciləri ilə əlaqənin idarə edilməsi və ödəyicilərə göstərilən xidmətlərin vahid şəbəkəsinin qurulması sisteminə görə Avropa ölkələri arasında qabaqcıl yerlərdən birini tutur. Azərbaycan bu sistemin də bir çox elementlərini tətbiq edib, xidmətlərin təkmilləşdirilməsi, proqramlaşdırma sahəsində təcrübə mübadiləsi davam etdirilir. Hər iki ölkənin vergi administrasiyası maliyyə-vergi, fiskal sahələrdə qabaqcıl təcrübələri bölüşmək üçün yaxşı imkanlara malikdirlər. Mövcud əlaqələrin daha da inkişaf etdirilməsi üçün ölkələr arasında ikiqat vergitutmanın aradan qaldırılmasına dair saziş imzalanmasına ehtiyac var. Çünki sazişin imzalanması sayəsində vətəndaşlardan ikili vergitutmanın qarşısı alınmış olar. Bundan əlavə, qarşılıqlı sərmayə qoyuluşlarının təşviqi biznes dairələrinin investisiya yatırmalarına müsbət təsir göstərə bilər.

***Müsahibəni hazırladı:***
**Elbrus CƏFƏRLİ**

# Vergi ödəyicilərinin hüquq və mənafeləri daim diqqət mərkəzindədir




2007-ci ildən iyunun 18-i Azərbaycanda «İnsan Hüquqları Günü» elan edilib. Ölkə başçısının 27 dekabr 2011-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı»nda nəzərdə tutulmuş tədbirlərin icrası istiqamətində Vergilər Nazirliyi tərəfindən də xeyli işlər görülüb.

Son illərdə Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklərin böyük əksəriyyəti sahibkarlığın inkişafını stimullaşdırmağa, onların huquqlarının qorunmasına xidmət etmişdir. Nəticə etibarilə Azərbaycanda vergi ödəyicilərinin hüquqları ilə bağlı qanunvericilik bazası digər ölkələrlə müqayisədə əsaslı şəkildə liberallaşdırılmışdır.

Bundan başqa, vergi orqanları tərəfindən «İnsan hüquq və azadlıqlarının müdafiəsi, o cümlədən sahibkarların hüquqlarının müdafiəsinin daha da möhkəmləndirilməsi» mövzusunda mütəmadi görüşlər keçirilir. Görüşlərdə sahibkarların hüquqlarının qorunması istiqamətində görülən işlər, vergi ödəyicilərinin Vergi Məcəlləsi ilə təsbit edilmiş hüquq və vəzifələri, elektron xidmətlər, Vergilər Nazirliyinin çağrı mərkəzi, rəsmi internet səhifəsi, vergi ödəyicilərinə xidmət mərkəzləri, Vergi Apelyasiya Şurası və onun fəaliyyəti barədə görüş iştirakçılarına ətraflı məlumat verilir. Sahibkarlığın təşviqinə yönəlmiş vergi siyasətinin həyata keçirilməsi istiqamətində vergi qanunvericiliyi və vergi inzibatçılığı sahəsində vergi ödəyiciləri üçün zəruri informasiyanı əks etdirən bukletlər, Vergilər Nazirliyinin fəaliyyətini əks etdirən icmal jurnallar, «Vergi uşaqların gözü ilə» adlı jurnallar nəşr etdirilmiş və vergi ödəyicilərinə çatdırılmışdır.

Vətəndaşların şikayət və müraciətlərinə baxılmasının müasir və mütərəqqi üsulu kimi videoqəbulların keçirilməsi razılıqla qarşılanır. Belə videoqəbullar 2013-cü il iyunun 10-dan «Polikom» proqramı vasitəsilə videokonfrans şəklində keçirilir. Ötən il vətəndaşlarla 14 videoqəbul təşkil edilmişdir. Ümumilikdə vergi orqanlarına daxil olmuş müraciətlərə qanunla müəyyən olunmuş müddətlərdə baxılması məsələsinin daim nəzarətdə saxlanılması nəticəsində bütün sorğular vaxtında icra edilmişdir. Vergi ödəyicilərinə xidmət mərkəzlərindən və orada xidmət göstərən təmsilçilərdən məmnunluq səviyyəsinin ölçülməsi ilə əlaqədar hazırlanmış «Birlikdə daha yaxşı olaq!» və «Vergi orqanlarına etdiyiniz müraciətlərə baxılması sizi qane edirmi?» mövzuları üzrə sorğular keçirilmişdir.

Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə daxil olan istifadəçilərin sayı ilbeil artır. Təkcə ötən il internet səhifəsinə 4.453.035 istifadəçi daxil olmuşdur. İstifadəçilərin axtardıqları məlumatları tez və rahat tapması üçün istifadə edilən «Onlayn bələdçi» xidməti vasitəsilə 14.739 sorğu cavablandırılmışdır. Rəsmi internet səhifəsində «Vergilər nazirinin bölgələrdə qəbulu» bölməsi yaradılmışdır ki, həmin bölmədə interaktiv xəritə vasitəsilə hər bir rayonda keçirilən görüşün tarixi, yeri, müraciətlərin mövzuları və nəticələri barədə məlumatlar yerləşdirilmişdir. Məlumatlar səhifədə cədvəl formasında da yerləşdirilmişdir. Vergilər Nazirliyinin «Facebook» sosial şəbəkəsindəki səhifəsində istifadəçi marağını artırmaq məqsədilə «Məhşurlardan ismarıc var!» adlı yeni layihə təqdim edilmişdir. Layihə vasitəsilə seçilmiş məhşurların, ictimai-siyasi xadimlərin, idmançıların və cəmiyyətdə tanınan simaların dilindən vergilərin təbliğinə aid şüarlar səsləndirilir. Artıq 5 məhşurun iştirakı ilə belə videoçarxlar yerləşdirilmişdir. Vergilər Nazirliyinin rəsmi internet səhifəsindən, o cümlədən səhifədəki məlumat və elektron xidmətlərdən istifadənin asanlaşdırılması və əhalinin bütün təbəqəsi üçün əlçatan olması məqsədilə IOS və Android sistemli smartfon tipli avadanlıqlar üçün müvafiq parametrləri özündə əks etdirən xüsusi proqram hazırlanmış və keçən ilin noyabr ayından «PlayMarket» və «AppStore» servislərində yerləşdirilmişdir. Səhifənin «Qanunvericilik» bölməsindəki normativ-hüquqi sənədlərin yenilənməsi mütəmadi olaraq davam etdirilir.

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə əlaqədar «Daşınmaz əmlak satışının sadələşdirilmiş vergiyə cəlb edilməsi», «Bina tikintisi ilə məşğul olan şəxslərin sadələşdirilmiş vergiyə cəlb edilməsi», «Ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərin sadələşdirilmiş vergiyə cəlb edilməsi» mövzularında yeni bukletlər hazırlanmışdır.

«Azad Azərbaycan» teleradio yayım şirkəti ilə Vergilər Nazirliyinin birgə layihəsi olan həftəlik «İqtisadi zona» televiziya verilişi ölkəmizdə və dünyada baş verən ən vacib iqtisadi yenilikləri geniş tamaşaçı kütləsinə çatdırmaqla yanaşı, vergilərin təbliğinə xidmət edir, sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırmasını dəstəkləyən, vergi ödəyiciləri ilə münasibətləri daha da asanlaşdıran, bütünlükdə ölkənin iqtisadi mənzərəsini əks etdirən məlumatlandırıcı və maarifləndirici xarakter daşıyır.

Bundan başqa, vergi ödəyicilərinin vergi qanunvericiliyi və inzibatçılığı ilə bağlı bilik və bacarıq səviyyələrinin yüksəldilməsi, hüquq və vəzifələri barədə maarifləndirilməsi məqsədi ilə «Vergilər» qəzetində müntəzəm şəkildə materiallar dərc edilir, maarifləndirici rubrikalar aparılır. Qəzetdə nazirliyə daxil olmuş vətəndaş müraciətləri, vergi ödəyicilərinə göstərilən elektron xidmətlər və onlardan istifadə imkanları barədə geniş maarifləndirici məlumatlar verilir. «Vergi ödəyicisinin sualı var...» rubrikasında vergi sahəsinə dair ayrı-ayrı aktual məsələlərlə bağlı izahat xarakterli materiallar dərc edilir, oxucuları maraqlandıran suallar cavablandırılır.

Bunlarla yanaşı, «Vergilər» qəzetində, «Azərbaycanın vergi jurnalı»nda vergi ödəyicilərinin hüquqlarına həsr olunmuş materiallar hazırlanır, xüsusilə İnsan Hüquqları üzrə Müvəkkilin təşəbbüsü ilə respublikada keçirilən «İnsan hüquqları aylığı» çərçivəsində vergi ödəyicilərinin hüquqlarından bəhs edən silsilə məqalələr dərc edilir. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) təşəbbüsü ilə ənənəvi olaraq keçirilən «Sülh aylığı» çərçivəsində «Azərbaycanın vergi jurnalı» redaksiyası tərəfindən «Sosial-iqtisadi hüquqların müdafiəsi: dövlət və vətəndaş məsuliyyəti» mövzusunda «dəyirmi masa» keçirilmişdir. Tədbir müxtəlif KİV-lərdə geniş işıqlandırılmışdır. Vergi bəyannamələrinin təqdim edilməsi ilə bağlı ictimaiyyətin geniş məlumatlandırılması üçün reklam çarxları hazırlanaraq onların müxtəlif televiziya kanallarında və elektron KİV-də verilməsi təmin edilmişdir.

**Rəşad SADIQOV**



## Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

# Sadələşdirilmiş vergi

**Dərman vasitələrinin pərakəndə satışı ilə məşğul oluram. Bu fəaliyyət üzrə sadələşdirilmiş vergi ödəyicisi ola bilərəmmi?**

Vergi Məcəlləsinin (VM) 159.8-ci maddəsinə əsasən, ƏDV ödəyicisi kimi qeydiyyatdan keçməyən şəxslərin ƏDV tətbiq etməklə aparılan əməliyyatları, habelə ƏDV-dən azad edilən və ya sıfır (0) dərəcə ilə ƏDV-yə cəlb edilən, lakin ƏDV tətbiq etməklə aparılan əməliyyatları vergitutma obyektidir.

Vergi Məcəlləsinin 220.1-1-ci maddəsinə əsasən, 218.1.2-ci maddədə göstərilən şəxslər tərəfindən sadələşdirilmiş vergi VM-in 219.1-ci maddəsində müəyyən edilmiş vergitutma obyekti üzrə (qiymətləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən tənzimlənən malların satış dövriyyəsi istisna edilməklə) ticarət fəaliyyəti üzrə 6 faiz dərəcə ilə hesablanır.

Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının «Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi barədə» 5 aprel 2016-cı il tarixli 5 nömrəli qərarına əsasən, dövlət qeydiyyatına alınmış dərman vasitələrinin topdansatış və pərakəndə satış qiymətləri ƏDV ilə təsdiq edilmişdir.

Qeyd olunanlara əsasən, dövlət qeydiyyatına alınmış dərman vasitələrinin topdan və pərakəndə satış qiymətləri ƏDV ilə birlikdə təsdiq edildiyindən dərman vasitələrinin pərakəndə satışını həyata keçirən şəxslərin sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququ yoxdur və həmin şəxslər ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmaqla ƏDV-nin və mənfəət vergisinin ödəyicisi kimi fəaliyyət göstərirlər.

# İlk investisiya təşviqi sənədi təqdim olunub

## İqtisadiyyat Nazirliyi 15 layihəyə investisiya təşviqi sənədinin əldə olunması üçün ümumilikdə 160 milyon manat məbləğində vəsait ayrılmasına razılıq verib

İqtisadiyyat naziri Şahin Mustafayev bildirib ki, «İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi qaydası»nın təsdiq olunmasından az müddət keçməsinə baxmayaraq, sahibkarlar tərəfindən daxil olan müraciətlərin sayı kifayət qədərdir. Komissiya investisiya layihələri (biznes planı) içərisində müəyyən edilmiş tələblərə uyğun olanları qeydiyyata alaraq müsbət rəy verib. Bu layihələrin həyata keçirilməsi sayəsində ölkəmizdə 1400-ə yaxın yeni iş yerləri açılması nəzərdə tutulur. Sənədin verilməsi ölkədə investisiya və biznes mühitinin yaxşılaşdırılmasına və stimullaşdırılmasına, sənaye istehsalının artırılmasına, qeyri-neft sektorunun inkişafına, sahibkarların ixrac potensialının gücləndirilməsinə səbəb olacaq.

Nazirlik müraciət etmiş digər sahibkarların ərizələrinə də baxılacağını və qarşıdakı günlərdə investisiya təşviqi sənədləri veriləcəyini bildirir. Qeyd edək ki, sahibkarların təqdim etdikləri biznes planına qeydiyyata alındığı tarixdən ən geci 7 iş günü müddətində baxılır və tələb olunan tələblərə uyğun olduqda sahibkara təsdiqedici sənəd verilir. İqtisadiyyat Nazirliyi sənəd barədə məlumatları 3 iş günü müddətində Vergilər Nazirliyinə və Dövlət Gömrük Komitəsinə təqdim edir. Sahibkarın təqdim etdiyi ərizədə və ona əlavə olunmuş sənədlərdə göstərilən məlumatlar tələblərə cavab vermədikdə, habelə onlarda aradan qaldırılması mümkün olmayan çatışmazlıq aşkar edildikdə təsdiqedici sənədin verilməsindən imtina olunur. Bununla yanaşı, sahibkara yenidən bu sənədi əldə etmək şansı da verilib. Sahibkar təsdiqedici sənədin verilməsi barədə ərizədə aşkar edilmiş çatışmazlıqlar aradan qaldırıldığı halda, sahibkarın yenidən ərizə ilə müraciətinə müsbət baxıla bilər.

Ş.Mustafayev bildirib ki, sahibkarlara verilən məbləğ investisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi və layihənin həyata keçiriləcəyi inzibati ərazi vahidlərindən asılı olaraq dəyişir. İnvestisiya layihəsinin həyata keçiriləcəyi inzibati ərazi vahidləri 5 region üzrə müəyyənləşib. Birinci regiona Bakı şəhəri, ikinci regiona Bakıətrafı qəsəbələr və Abşeron rayonu, üçüncü regiona Sumqayıt və Gəncə şəhərləri, dördüncü regiona 1, 2, 3 və 5-ci regionlara aid edilməyən şəhər və rayonlar, beşinci regiona Naxçıvan Muxtar Respublikası, Füzuli, Xocavənd, Ağdam, Tərtər, Ağcabədi, Naftalan, Goranboy, Göygöl, Gədəbəy, Daşkəsən, Qazax, Tovuz, Ağstafa, Lerik, Yardımlı, Balakən, Qusar rayonları daxil edilib. Birinci regiondan beşinci regiona doğru iqtisadi fəaliyyət sahələri üzrə tələb olunan investisiya layihəsinin həcmi ilə bağlı məbləğlər azalır. Məsələn, Bakıda investisiya təşviqi sənədinin alınması üçün minimum 5 milyon, Bakıətrafı qəsəbələr və Abşeron rayonunda minimum 3 milyon manat investisiyanın qoyulması tələb edilirsə, 5-ci region üzrə bu tələb 500 min manat həcmindədir.

**İqtisadiyyat Nazirliyi sənəd barədə məlumatları 3 iş günü müddətində Vergilər Nazirliyinə və Dövlət Gömrük Komitəsinə təqdim edir**

Mənsub olduğu regiondan asılı olmayaraq, investisiya təşviqi sənədi almış sahibkarların əldə etdikləri mənfəətin 50%-i 7 il müddətinə gəlir və ya mənfəət vergisindən azad edilib. Sənədi almış hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı bu sənədin alındığı andan 7 il müddətinə ƏDV-dən azad olunub. Bundan başqa, hüquqi şəxslər və fərdi sahibkarlar müvafiq əmlaka görə 7 il müddətinə əmlak vergisi, mülkiyyətlərində olan torpaq sahələrinə görə isə 7 il müddətinə torpaq vergisi ödəməkdən azad ediliblər. Onlar texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalına görə həm də 7 il müddətinə gömrük rüsumlarından azaddırlar.

Ş.Mustafayev qeyd edib ki, ixracın təşviqi, o cümlədən geri ödəmə dəstəyinin verilməsi, «Made in Azerbaijan» brendinin xarici bazarlarda təşviqi, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlərin alınmasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin bir hissəsinin dövlət büdcəsi hesabına ödənilməsi və ixrac yönümlü istehsala verilən kreditlərə əlavə güzəştlərin tətbiqi məqsədilə qanunvericiliyə dəyişiklik edilməsi istiqamətində də iş aparılır. Ölkənin investisiya imicinin formalaşdırılması, yerli və xarici investorlara müxtəlif xidmətlər göstərilməsi, investorların cəlb edilməsi və onlarla danışıqların aparılması, investisiyalar və ixrac imkanları üzrə məlumat bazasının yaradılması da əsas hədəflərdəndir. Yeni forma və məzmunda hazırlanmış «İnvestisiya layihələri toplusu» potensial xarici investorların cəlb olunmasına xidmət edir. İxrac qabiliyyətli yerli məhsulların təşviqi, ixracatçılara yeni bazarların və alıcıların tapılmasında dəstək göstərilməsi üçün tədbirlər davam etdirilir.

**E.CƏFƏRLİ**

# İşsizlərə sığorta ödənişi veriləcək

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi «İşsizlik sığortası haqqında» qanun layihəsini hazırlayaraq baxılması üçün hökumətə təqdim edib. Nazir müavini İdris İsayev fins.az-a bildirib ki, artıq bu layihə bütün əlaqədar övlət qurumları ilə razılaşdırılıb. Qanunun parlamentin payız sessiyasında qəbul ediləcəyi və 2017-ci ilin əvvəlindən işə düşəcəyi gözlənilir.

Yeni qanun layihəsinə görə, işsizlikdən sığorta haqqı ümumilikdə işçinin əmək haqqının 1%-i qədər olacaq. Bunun 0,5%-ni işçi özü, 0,5%-ni isə işə götürən ödəyəcək. «Bu dünyada ən aşağı göstəricilərdən biridir. Digər ölkələrdə bu göstərici daha yüksəkdir və bəzən hətta əmək haqqının 3-5%-nə çatır» - deyə nazir müavini bildirib.

Amma qanuna görə, işsizlik sığortası hazırda fəaliyyət göstərən yardım sisteminə oxşamayacaq, yəni yardım olmayacaq. Qanuna görə, işsiz vətəndaşa sığorta ödənişi veriləcək (indii bu işsizliyə görə müavinət adlanır). Amma bu məbləğ diferensiallaşdırılıb, yəni işçinin stajından və işsiz qaldığı dövrdən asılı olaraq dəyişəcək.

Yəni işçinin stajı böyük olduqca sığopta ödənişi də böyük olacaq, işsiz qaldığı müddət artdıqca isə ödəniş də azalacaq. Belə ki, qanuna görə,

İşsizlikdən sığorta ilk növbədə o insanlara şamil ediləcək ki, onlar işdən ixtisar ediliblər, və ya müəssisələri bağlınıb və işsiz statusu alıblar. Onlara ödənişlər stajdan asılı olacaq. İşçinin əmək stajı 10 ildən artıqdırsa, o işsiz qalanda onun aylıq ödənişi son 12 ay ərzində orta aylıq maaşının 65%-i qədər olacaq. Əgər işçinin əmək stajı 5-10 il arasındadırsa, sığopta ödənişi bir qədər də az olacaq, stajı 3-5 il olanlar üçün ödəniş daha az, 3 ildən az olanlar üçün isə minimum məbləğdə ödəniş veriləcək.

Hər dəfə müraciət üçün sığorta ödənişi müddəti maksimum 6 ay nəzərdə tutulub. Vətəndaş işsizlikdən sığorptaya görə ilk dəfə müraciət edirsə onu 6 ay müddətinə ödəniş təüyin edilir. 6 ayın özündə də ödənişlər eyni məbləğlə olmayacaq. İlk iki ayda işsiz şəxs ona təyin olunan aylıq ödənişi 100% alacaq, sonrakı 2 ayda bu ödəniş 80%-ə, sonrakı iki ayda isə 70%-ni alacaq.

İşsiz şəxs bu müddət ərzində iş tapa bilməsə və yenidən sığopta ödənişi üçün müraciət etsə, ona 3 ay müddətinə sığorta ödənişi veriləcək. Ödənişlərin məbləği getdikcə azalacaq və minimum həddə düşəcək. Minimum hədd isə minimum əmək haqqı həddində olacaq.

Nazir müavini bildirib ki, nazirlik işsizlərə təkcə sığorta ödənişi vermək fikrində deyil, onlarla fərdi məşğulluq proqramı həyata keçiriləcək: «Yəni işsiz insana sığorta ödənişi kəsilibsə, bu o demək deyil ki, bu hər ay onu davamlı alacaq. Qaydaya görə, o hər ay gəlməlidir məşğulluq orqanına, sübut etməlidir ki, iş axtarır, və o gəldiyi zaman ona aktiv məşğulluq tədbirləri təklif olunacaq. Məsələn peşə hazırlığı, ixtisasını artırmaq və ya dəyişməsi və s.». Əgər işçi doğrudan da iş axtardığını sübut edə bilməsə və bu tədbirlərdə iştirak etməsə, ona sığorta ödənişinin verilməsi növbəti aydan etibarən dayandırılacaq.

Nazir müavini bildirib ki, yeni qanunun tətğiqi toplanacaq vəsaitlərin təqribən yarısı özünəməşğulluq tədbirlərinə sərf ediləcək ki, həmin şəxslərin məşğulluğu təmin edilsin. Bu istiqamətə sərf ediləcək vəsait təqribən 25 milyon olacaq (yəni ümumi yığılan vəsait 50 milyon manata yaxın olacaq).

# Yeni sənaye məhəlləsi yaradılır

Son günlərin maraqlı iqtisadi xəbərlərindən biri də Azərbaycan Prezidenti İlham Əliyevin Masallı sənaye məhəlləsinin yaradılması haqqında sərəncam imzalamasıdır. Kiçik və orta sahibkarlığın dəstəklənməsi məqsədilə Masallı sənaye məhəlləsinin ərazisində qeyri-neft sənaye sahələri üzrə məhsul istehsalı və emalı müəssisələri, habelə xidmət müəssisələri fəaliyyət göstərəcək.



Masallı sənaye məhəlləsinin idarə olunmasını, inkişafını, fəaliyyətinin təşkilini və tənzimlənməsini «Azərbaycan İnvestisiya Şirkəti» Açıq Səhmdar Cəmiyyəti həyata keçirəcək. Nazirlər Kabinetinə bu məqsədlə Masallı rayonu ərazisində 10 hektar torpaq sahəsinin ayrılması və icarəyə vermək hüququ ilə «Azərbaycan İnvestisiya Şirkəti» Açıq Səhmdar Cəmiyyətinin daimi istifadəsinə verilməsi ilə bağlı 3 ay müddətində zəruri tədbirlər görmək və bu barədə Prezidentə məlumat vermək tapşırılıb. İqtisadiyyat Nazirliyinə isə Masallı sənaye məhəlləsinin xarici və daxili infrastrukturunun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması və sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün digər xidmətlərin göstərilməsini təmin etmək məqsədilə zəruri tədbirlər görmək həvalə olunub.

İqtisadçı ekspert Pərviz Heydərov qeyd edib ki, ölkə başçısının 8 oktyabr 2014-cü il tarixdə imzaladığı «Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında» Fərmandan irəli gələrək ölkədə indiyədək regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində müxtəlif təyinatlı yüzlərlə sənaye müəssisəsi tikilib istifadəyə verilib, minlərlə yeni iş yerləri açılıb. Bütün bunların davamı olaraq, rəqabətədavamlı sənaye məhsulları istehsalını daha da artırmaq məqsədilə hazırda sənaye parklarının sayının artırılması istiqamətində ciddi iş aparılır.

Regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsində və yerli ehtiyatlardan səmərəli istifadə etməklə sənaye sahələrinin inkişaf etdirilməsində bir istiqamət də, sözsüz ki, ölkənin ayrı-ayrı şəhərlərində sənaye məhəllələrinin yaradılmasıdır. Sənaye məhəllələri istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması, kooperasiya əlaqələrinin gücləndirilməsi, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Ümumiyyətlə, sənaye məhəlləsi sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura malik, kiçik və orta sahibkarlar tərəfindən məhsul istehsalı və xidmət göstərilməsi üçün istifadə edilən ərazi anlamı daşıdığından, bilavasitə iqtisadiyyatın şaxələndirilməsinin daha dərindən təşkili və yeni, dayanıqlı gəlir mənbələri yaratmaq məqsədi daşıyır.

Bu gün Sumqayıt, Balaxanı, Mingəçevir və Qaradağda sənaye parklarının və Neftçalada sənaye məhəlləsinin təşkili və genişləndirilməsi istiqamətində böyük işlər həyata keçirilməkdədir. Sahibkarlar tərəfindən də bu sahəyə böyük maraq göstərildiyi nəzərə çarpır ki, bu, olduqca müsbət haldır.

**FƏXRİYYƏ**

# Əmlakla əməliyyatlar zamanı anlaşılmazlıqlara son qoyulacaq

## Ölkə vətəndaşları sahib olduqları əmlaklar barədə heç bir yerə getmədən, internet vasitəsilə ətraflı məlumat ala biləcəklər

Əmlak Məsələləri Dövlət Komitəsinin təqdim etdiyi «Daşınmaz əmlakla bağlı dövlət reyestrindən məlumatın verilməsi» elektron xidməti vasitəsilə əmlakın həm ölçüləri və texniki göstəriciləri, həm də hüquqi sahibi və onunla aparılan əməliyyatlar, eləcə də əmlakın əvvəlki sahibi barədə məlumatlar əldə etmək mümkün olacaq. Bu xidmətdən istifadə etmək üçün komitənin elektron xidmətlər portalına (e-emdk.gov.az) və ya «Elektron hökumət» portalına daxil olmaq lazımdır. Əmlak sahibi portalda lazımi xidməti keçid etdikdən sonra iki xana açılır. Bu xanaların hər birində daşınmaz əmlakın reyestr və qeydiyyat nömrəsi daxil edilir. Xidmətdən istifadə üçün 10 manat dövlət rüsumu nəzərdə tutulub. Rüsumu elektron qaydada ödədikdən sonra ekranda əmlakla bağlı məlumatlar görünür. Bura əmlakın reyestr nömrəsi, qeydiyyat tarixi, ünvanı, torpağın və tikilinin sahəsi, tikilinin mərtəbə və otaq sayı, hüquqi sahibi barədə məlumatlar aiddir.

Vətəndaşlar özlərinə lazım olan bütün məlumatları internet vasitəsilə əldə etdiyindən ərazi qeydiyyat idarələrinə getmək və ərizə yazmağa ehtiyac qalmır. Bu zaman vətəndaş-məmur təması da aradan qalxır. Xidmətdən istifadə etmək üçün «elektron imza» tələb olunmur. İstənilən şəxs dövlət rüsumunu kartla ödəməklə xidmətdən yararlana bilər.

Yeni xidmət təkcə əhali üçün deyil, dövlət qurumları, fiziki və hüquqi şəxslər, banklar və digər daşınmaz əmlak sahibləri üçün də faydalıdır. Hazırda Azərbaycanda əmlakla əməliyyatlar zamanı müxtəlif anlaşılmazlıqlar, alıcı və satıcıların aldadılması halları tez-tez baş verir. Bəziləri insanların etibarından istifadə edərək başqasına məxsus əmlakı özününkü kimi təqdim edir və ya onun ölçüləri və digər göstəriciləri barədə düzgün olmayan məlumatlar verirlər. Bu isə əmlakın alıcısı üçün risklər yaradır. Yeni xidmət bütün məsələləri yerindəcə yoxlamağa imkan verir. Alıcı satıcıdan, sadəcə, bu xidmətdən istifadə etməsini istəyir və bu zaman özü də sistemin təqdim etdiyi məlumatlarla tanış olur. Yeni xidmətin digər üstünlüyü əmlakın tarixçəsi barədə dəqiq məlumat almaq imkanıdır. Xidmətdən istifadə etməklə daşınmaz əmlakın keçmiş və indiki sahibləri, onunla aparılan əməliyyatlar barədə informasiya almaq mümkündür. Digər tərəfdən, alıcı və ya elə əmlak sahibinin özü keçmişdə onunla bağlı hər hansı mübahisənin olub-olmadığını dəqiqləşdirə bilər.

**AYTƏN**

# Qadın sahibkarlar iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərirlər



*Ölkədə sahibkarlığın inkişafı, əlverişli biznes mühitinin yaradılması məqsədilə dövlətimiz tərəfindən davamlı tədbirlər həyata keçirilir. Qanunvericilik bazası təkmilləşdirilir, sahibkarların fəaliyyətindəki maneələr aradan qaldırılır, onlara bizneslərini qurmaq üçün dövlət tərəfindən güzəştli şərtlərlə kreditlər verilir və s. Bütün bunlar qadınlarımızın da sahibkarlıq fəaliyyətinə başlamaq meylinin güclənməsinə səbəb olub. Sahibkar Qadınlar İctimai Birliyinin prezidenti Zemfira Ağayeva ilə qadınların sahibkarlıq sahəsində fəaliyyətləri, onların üzləşdikləri çətinliklər və digər məsələlər barədə söhbət etdik.*

***- Zemfira xanım, sahibkar qadınlarla işləyən təşkilatın rəhbəri və eyni zamanda bir sahibkar qadın kimi ölkədə sahibkarlığın inkişafı üçün yaradılan şəraiti necə qiymətləndirirsiniz?***

- Ölkəmizdə sahibkarlığın inkişafı üçün böyük imkanlar var. Dövlət başçısı tərəfindən sahibkarlara hər zaman diqqət və qayğı göstərilir. Bu qayğının nəticədir ki, bu gün sahibkarlar üzləşdikləri problemləri, şikayətləri şəxsən ölkə başçısının diqqətinə çatdıra bilirlər. Dövlətimiz sahibkarlığın inkişaf etdirilməsi istiqamətində bütün zəruri addımları atıb və atmaqdadır. Ölkə başçısının təşəbbüsü ilə sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 il müddətinə dayandırılıb, lisenziya və icazələrin sayı azaldılıb, investisiya təşviqi sənədinin alınması məqsədilə vergi və gömrük güzəştləri tətbiq edilir. Bütün bunlar sahibkarlığın inkişafı istiqamətində atılan mühüm addımlardır. Bu qərarlar sahibkarlıq fəaliyyətinə yersiz müdaxilələrin aradan qaldırılmasında, orta və kiçik sahibkarlığın daha da inkişaf etdirilməsində mühüm rol oynayır. Əgər bu gün sahibkarlıq fəaliyyəti ilə məşğul olan qadınlar irəli gedə bilirlərsə, bu da dövlətin diqqətinin bariz nümunəsidir. Çünki dövlət dəstəyi olmasa, fərqi yoxdur, nə kişi, nə də qadın sahibkar öz biznesini qurmaq iqtidarında ola bilməz. Bir sözlə, ölkəmizdə həyata keçirilən tədbirlər, dövlətimizin başçısının bu sahəyə qayğısı sahibkarlığın sürətli inkişafına geniş imkanlar açır.

***- Sahibkarlığın stimullaşdırılması məqsədilə Vergi Məcəlləsinə edilən dəyişiklikləri necə dəyərləndirirsiniz?***

- Vergi Məcəlləsinə edilmiş dəyişikliklər ölkəmizdə sahibkarlığın inkişafına və dəstəklənməsinə xidmət edir. Məcəlləyə edilən dəyişikliklərin çoxu vergi ödəyicilərinin hüquqlarının genişlənməsinə, vergi yükünün azaldılmasına xidmət edir. Dəyişikliklərlə ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektlərinə alternativlər yaradılır, seçim hüququ verilir. Yəni sahibkarlar ona rahat və sərfəli olan variantı seçmək imkanı qazanırlar. İnvestisiya təşviqi sənədini almış sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi şəxslər və fərdi sahibkarlar əlavə dəyər vergisindən, əmlak və torpaq vergilərindən 7 il müddətinə azad ediliblər və s. Hesab edirəm ki, Məcəlləyə edilən sonuncu dəyişikliklər sahibkarlıq fəaliyyəti ilə məşğul olan insanların iş həyatlarında müsbət dəyişikliyə səbəb olacaq.

***- Vergilər Nazirliyinin sahibkarlarla əlaqələri barədə nə deyə bilərsiniz?***

- Vergilər Nazirliyi sahibkarlarla çox gözəl və səmərəli əlaqələr qurub. Sahibkarlara üzləşdikləri çətinlikləri çəkinmədən nazirliyin rəhbər şəxslərinə çatdırmaq imkanı yaradılıb. Bunun üçün nazirlik tərəfindən müxtəlif variantlar təklif edilir. Hər bir vergi ödəyicisinin üzləşdiyi çətinliklərlə bağlı, vergi əməkdaşının qeyri-etik davranışı, korrupsiya və digər hüquqpozma halları barədə nazirliyə elektron formada müraciət etmək imkanı yaradılıb. Vergi ödəyiciləri vergilər nazirinə onlayn müraciət etmək, rayonlarda nazirin və nazirliyin yüksək vəzifəli şəxslərinin görüşündə iştirak etmək fürsəti əldə ediblər. Nazirliyin Çağrı Mərkəzi, vergi ödəyicilərinə xidmət mərkəzləri də hər bir vergi ödəyicisinin, hər bir vətəndaşın ən rahat müraciət etdiyi və operativ cavab aldığı ünvanlardandır. Yeri gəlmişkən, onu da deyim ki, Vergilər Nazirliyinin «Vergi dostları»nın fəaliyyətini də çox yüksək qiymətləndirirəm.

***- Bir az da təşkilatınızın fəaliyyəti barədə danışaq. Qadın sahibkarların bizneslərini qurmaq istiqamətində təşkilatınız tərəfindən hansı işlər görülür?***

- Sahibkar Qadınlar İctimai Birliyi 2001-ci ildə Ədliyyə Nazirliyində dövlət qeydiyyatından keçərək fəaliyyətə başlayıb. 12 rayonda mərkəzlərimiz fəaliyyət göstərir. Hazırda təşkilatın 5000-dən artıq üzvü var və onların 60%-ni gənclər təşkil edir. Təşkilatımızın əsas fəaliyyəti ölkəmizin iqtisadiyyatını daha da gücləndirmək məqsədilə qadın və qızlarımızın biliyini, zəkasını bu sahəyə yönəltməkdir. Bunun üçün sahibkar qadınlarla tez-tez görüşlər keçirir, problemləri ilə yaxından tanış olur, onlara dəstək veririk. Təşkil etdiyimiz peşə kurslarını bitirən xanımlarımızı sonradan sahibkarlıq fəaliyyətinə yönəldirik. İl ərzində 200-dən çox gənc sahibkar qadının istehsal etdiyi məhsulların sərgisini keçiririk. Sərgiyə dəvət etdiyimiz dövlət qurumlarının nümayəndələrinin bizim çağırışımıza cavab verib tədbirimizdə iştirak etməsi, sərgidə nümayiş etdirilən əl işlərinin satın alınması özü də sahibkarlara dövlət tərəfindən göstərilən diqqətin bir formasıdır. Bu, sahibkarlığın stimullaşdırılmasına, sahibkar qadınların daha da həvəslənməsinə səbəb olur. Bu ayın sonunda Gəncə şəhərində də belə bir sərgi təşkil ediləcək.

Sevindirici haldır ki, qadınlarımız iqtisadiyyatın müxtəlif sahələrində çalışırlar. Xüsusilə xidmət, ticarət, kənd təsərrüfatı və istehsal sahələrində çalışan qadınlar üstünlük təşkil edir.

***- Qadın sahibkarların güzəştli kreditlərdən istifadə sahəsində vəziyyət necədir?***

- Əvvəllər sahibkarların kredit əldə edib, bizneslərini qura bilməsi çox çətin idi. Lakin son illər dövlətin güzəştli kreditləri hesabına bu sahədə vəziyyət yaxşıya doğru dəyişib. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən insanlar bu kreditlər hesabına öz bizneslərini qura bilirlər. Çünki bank kreditlərindən fərqli olaraq, dövlətin verdiyi güzəştli kreditlərdə faiz dərəcəsi çox aşağıdır və bu da sahibkarlar üçün çox sərfəlidir. Sahibkarlığa Kömək Milli Fondunun məlumatına görə, ötən il dövlətin güzəştli kreditlərindən bəhrələnən fərdi sahibkarların 19,7 faizini qadınlar təşkil edib. Məlumat üçün bildirim ki, sahibkar qadınların 38,3 faizi Bakı, 16,5 faizi Gəncə-Qazax, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyatdan keçmişdir.

***- Hazırda sahibkar qadınların nə kimi problemləri var?***

- Sahibkarlıq subyektlərində yoxlamaların dayandırılması, neqativ halların aradan qaldırılmasından sonra demək olar ki, elə də böyük problemlər olmur. Bizə daxil olan şikayətlərə əsasən deyə bilərəm ki, rayonlarda fəaliyyət göstərən sahibkar qadınların kommunal xidmətlərlə bağlı müəyyən problemləri var. Bəzən sahibkarlıq subyektinə elə böyük məbləğdə borc göndərilir ki, obyekt sahibinin qazancı borcu ödəməyə imkan vermir. Kiçik məmurların yaratdığı problemlər sahibkarların işinə müəyyən maneələr yaradır. Təşkilatımıza gələn şikayətlərin böyük əksəriyyəti bu problemlərlə bağlıdır. Kənardan kiçik görünən problemlər, əslində, sahibkarın işinə mane olan amillərdəndir.

**Aytən NƏBİYEVA**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Maliyyə Nazirliyinin məlumatlarına əsasən, 2016-cı ilin yanvar-may aylarında Azərbaycanın dövlət büdcəsinə **5453,9 milyon** manat vəsait daxil olub və büdcədən **5316,1** milyon manat vəsait xərclənib. Büdcənin icrasında yaranmış **137,8 milyon** manatlıq profisit ümumi daxili məhsulun 0,6% səviyyəsindədir.
- Hazırda Dövlət Neft Fondunun investisiya portfelinə daxil edilmiş qızılın miqdarı **30.175** kq (970.146 troya unsiyası) təşkil edir.
- Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2016-cı ilin yanvar-may aylarında əsas kapitala **5388,8** milyon manat məbləğində vəsait yönəldilib.
- Azərbaycanda Rusiya kapitalına əsaslanan 600-ə yaxın müəssisə qeydiyyata alınıb və bu müəssisələr tərəfindən ölkəmizə qoyulan Rusiya sərmayəsinin ümumi həcmi **3 milyard** dollara çatıb.

## BİR CÜMLƏ - BİR XƏBƏR

Azərbaycan 2017-2019-cu illər üçün BMT-nin İqtisadi və Sosial Şurasına üzv seçilib.

İyunun 20-də Bakıda İqtisadiyyat Nazirliyinin dəstəyi və Azərbaycanda İxrac və İnvestisiyaların Təşviqi Fondunun təşkilatçılığı ilə Azərbaycan-Rusiya biznes forumu keçirilib.

Rusiyanın «R-Farm» şirkətlər qrupu, onun partnyoru «Vita-A» və Azərbaycan İnvestisiya Şirkəti ölkəmizdə əczaçılıq kompleksinin tikintisi üçün investisiya qoyuluşu ilə bağlı razılığa gəliblər.

Slovakiya şirkətləri Azərbaycan sənaye parklarında investorlar üçün yaradılmış əlverişli imkanlardan yararlanmaq niyyətindədirlər.

«Azərbaycan Respublikasında biznesin idarə olunması sahəsində kadrların ixtisasının artırılması üzrə Almaniya-Azərbaycan birgə Proqramı»nın icra olunduğu 7 il ərzində iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən 277 sahibkar və gənc menecer Almaniyanın Karl Dyusberq, Baden-Vüttenberq və digər tədris mərkəzlərində təlim keçib.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin əməkdaşları mərkəzi icra hakimiyyəti orqanlarının dövlət satınalmalarına cəlb olunan mütəxəssislərinin ixtisas səviyyəsini və nəzəri biliklərini artırması məqsədilə təlim kursları təşkil edib.

# Əmək hüquqları sahəsində daha bir addım

*Azərbaycan Hökuməti ilə Beynəlxalq Əmək Təşkilatı (BƏT) arasında əməkdaşlıq çərçivəsində «2016-2020-ci illər üçün layiqli əmək üzrə ölkə Proqramı» hazırlanıb*

Yeni proqramın icrası yönündə görüləcək işlərin müzakirəsinə həsr edilən tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov bildirib ki, bu proqramın imzalanması ölkədə sosial inkişaf naminə mühüm məqsədlərin reallaşması yönündə növbəti addım olacaq: «Layiqli əmək hər hansı ayrı-seçkilik istisna olmaqla, insanın azad, bərabər, təhlükəsiz və ləyaqətinə hörmət şəraitində əmək hüququnun təminatı deməkdir. Bütövlükdə layiqli əmək konsepsiyası işçilərin əmək hüququ, məşğulluq, sosial müdafiə və sosial dialoq kimi 4 komponentə əsaslanır. Onun indikatorlarını isə layiqli əməyə nail olmaq üçün mövcud beynəlxalq və milli standartlar təşkil edir. Azərbaycanda bu prinsiplərə tam cavab verən vətəndaş hüquqları ölkənin Konstitusiyasında, BƏT-in ratifikasiya edilmiş 57 Konvensiyasında, əmək və sosial müdafiə üzrə milli qanunvericilikdə bəyan olunub».

Nazir bildirib ki, layiqli əmək ölkəmizin sosial-iqtisadi siyasətinin əsas istiqamətini təşkil edir: «Milli səviyyədə biz layiqli əməyi ümumi inkişaf kontekstində makroiqtisadi və əmək bazarında siyasətlərin qarşılıqlı əlaqəsi əsasında məşğulluq problemlərinin həlli kimi görürük. Başqa sözlə, layiqli əməyin təmin edilməsini məhsuldar əməyə nail olunması, sabit və keyfiyyətli iş yerlərinin yaradılması, əməyin ödənilməsi sistemində islahatların aparılması, peşə təhsili sisteminin təkmilləşdirilməsi, işsiz vətəndaşlar üçün səmərəli peşə hazırlığı və əlavə təhsil bazasının formalaşdırılması, işçi qüvvəsinin keyfiyyətinin artırılması, işsizlikdən sığorta sisteminin tətbiqi, əməyin mühafizəsi və əmək şəraitinin yaxşılaşdırılması, sosial dialoqun gücləndirilməsi tədbirləri vasitəsilə reallaşdırırıq».

MDB məkanında ilk dəfə Azərbaycanda qurulmuş əmək müqavilələrinin elektron qeydiyyatı sisteminin üstünlükləri önə çəkilərək bildirilib ki, ölkədə layiqli əmək üzrə fəaliyyət prioritetləri gənclərin məşğulluğunun artırılması məqsədlərini də əhatə edir. Qeyri-rəsmi məşğulluğun aradan qaldırılması, əhalinin özünün məşğulluğunun inkişafı, uşaq əməyinin qadağan olunması məsələlərinə xüsusi diqqət yetirilir. Ölkəmizdə gənclərin məşğulluğu sahəsində aparılan işlər beynəlxalq səviyyədə də yüksək dəyərləndirilir. Azərbaycan MDB-də yeganə dövlətdir ki, gənclərin məşğulluq problemlərinin həlli üzrə BƏT tərəfindən dünyada 10 lider ölkə sırasına daxil edilib. BƏT-in «MDB-də gənclərin məşğulluğu sahəsində əməkdaşlıq» layihəsi çərçivəsində ölkəmizdə görülən işlər, o cümlədən «Ali təhsilli, ilk dəfə işaxtaran gənclərin işlə təmin olunmasına dəstək», «Gənclərin məşğulluğu subsidiya proqramı» pilot layihələri uğurla həyata keçirilir. BƏT tərəfindən gənclərin məşğulluğu sahəsində MDB-də ən yaxşı iş təcrübələri üzrə keçirilmiş müsabiqədə ölkəmiz birinci yerə layiq görülüb.

2016-2020-ci illər üçün «Layiqli əmək üzrə ölkə Proqramı»nın hazırlanması BƏT-lə Azərbaycan hökuməti arasında sıx əməkdaşlığın nəticəsi kimi qiymətləndirilir. Bu konsepsiya əsasında güclü, dayanıqlı, tarazlaşdırılmış, inklüziv, kifayət qədər iş yerləri olan iqtisadi artımın təmin edilməsi yolu ilə işsizliyin azaldılması, sosial rifahın yaxşılaşdırılması, gənclərin, qadınların və digər sosial cəhətdən həssas əhali qruplarının əmək bazarına inteqrasiyası, bacarıqların artırılması, nəticədə əmək məhsuldarlığının yüksəldilməsinə kompleks yanaşmaların və innovasiya elementlərinin tətbiqi ilə nail olunması nəzərdə tutulur.

**A.YUSİFQIZI**

# Kənd təsərrüfatına diqqət artırılır

Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, neft sektorundan asılılığın azalması, yeni istehsal müəssisələrinin istifadəyə verilməsi, işsizliyin aradan qaldırılması və sair sosial yönümlü problemlərin həlli sahibkarlığın inkişafına əhəmiyyətli dərəcədə təkan verir.

Azərbaycanda kənd təsərrüfatı sahəsində kreditləşmənin keyfiyyətini yüksəltmək və beynəlxalq təcrübəyə uyğunlaşdırmaq məqsədilə Kənd Təsərrüfatı Nazirliyi Almaniyanın «Frankfurt School of Finance and Management» şirkəti ilə müqavilə imzalayıb. Şirkət mövcud kreditləşmə sistemini təhlil edərək təkmilləşmə üçün tövsiyələr hazırlamalı, kənd təsərrüfatı sahəsi üçün yeni müasir kredit məhsulları təklif etməlidir.

Məsləhətçi şirkətin tövsiyələrinə görə, kreditləşmə siyasəti 3 istiqamətdə həyata keçirilməlidir.

Aqrar sahədə maliyyələşdirmənin strukturunun yaxşılaşdırılmasını nəzərdə tutan birinci istiqamətdə görüləcək işlərə dövlət büdcəsinin və beynəlxalq maliyyə qurumlarının dəstəyini təmin etmək, eləcə də özəl investisiyaları uzlaşdırmaq aiddir. Struktur yaxşılaşdırmasında əsas məqsəd büdcə maliyyələşdirməsinin effektivliyini və səmərəliliyini artırmaqdır.

İkinci istiqamət aqrar sahədə istifadə olunan kredit mexanizmlərinin hazırlanmasını nəzərdə tutur. Bu zaman informasiya və tranzaksiya xərclərinin azaldılması ilə bərabər, maliyyə institutlarının risklərinin azalması da vacibdir. Məqsəd aqrar sahəyə kreditləri maliyyə institutları üçün cəlbedici etməkdir.

Üçüncü istiqamətdə həyata keçiriləcək kredit və lizinq məhsullarının yaxşılaşdırılmasında məqsəd isə son borcalanın ehtiyaclarına və risk profilinə uyğun olaraq kənd təsərrüfatının rəqabət qabiliyyətini yüksəltmək, kənd təsərrüfatı kreditlərini daha sosialyönümlü etməkdir.

«Frankfurt School of Finance and Management» şirkəti tövsiyələrini hazırlamaq üçün aqrar sahəyə cəlb olunmuş müxtəlif qruplar və qurumlar arasında araşdırmalar, müsahibələr aparmağı nəzərdə tutur.

Aqrar sahədə yeni kreditləşmə siyasətinin hazırlanması və «Frankfurt School of Finance and Management» şirkəti ilə əməkdaşlıq nazirliyin Dünya Bankı ilə birgə icra etdiyi «Kənd təsərrüfatının rəqabət qabiliyyətinin gücləndirilməsi» layihəsi çərçivəsində həyata keçirilir.

**FƏXRİYYƏ**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Əmlakın «icarəyə götürülməsi» və «etibarnamə ilə idarəetməyə götürülməsi» anlayışlarının fərqli xüsusiyyətləri

Əmlakdan sahibkarlıq və qeyri-sahibkarlıq məqsədləri üçün istifadə zamanı icarə və idarəetmə münasibətlərinin qurulması hüquqi müstəvidə maraqlı məsələlərdən biridir. Ölkəmizdə əmlakın icarəyə verilməsi geniş yayılan fəaliyyət növlərindən olduğuna görə, bu sahədə vergi münasibətləri də daim aktual olaraq qalır. Lakin əmlakdan istifadə zamanı hüquqi münasibətlər təkcə icarə deyil, həmçinin idarəetməyə verilmə formasında da tətbiq edilir. Bu dəfə məhz əmlakın idarəçiliyə verilməsi ilə bağlı bəzi məqamlara aydınlıq gətirməyə çalışacağıq.

**İstifadə və etibarnaməli idarəçilik anlayışlarına hüquqi baxımdan şərh**

Qüvvədə olan qanunvericiliyə əsasən, «əmlakdan istifadə» və «əmlakın etibarnaməli idarəçiliyə verilməsi» anlayışları arasında olan fərqlərin izahı bəzi təsərrüfat əməliyyatlarının və bu əməliyyatlar üzrə vergilərin düzgün hesablanmasını müəyyənləşdirməyə imkan verir.

Azərbaycan Respublikasında istənilən mülkiyyətçi qanunvericiliklə və ya başqa şəkildə, o cümlədən müqavilə məhdudiyyətləri ilə müəyyənləşdirilmiş hədlərdə əmlaka (əşyaya) sərbəst surətdə sahib ola bilər, ondan istifadə edə bilər və ona dair sərəncam verə bilər, həmin əmlaka başqa şəxslərin sahibliyinə yol verməyə bilər, ona mənsub əmlak barəsində öz mülahizəsi ilə istənilən hərəkətləri edə bilər, bir şərtlə ki, həmin hərəkətlər qonşuların və ya üçüncü şəxslərin hüquqlarını pozmasın, yaxud hüquqdan sui-istifadə olmasın. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 152.6-cı maddəsinə əsasən, hüquqdan sui-istifadə mülkiyyətdən başqalarına ziyan vuran şəkildə istifadədir; bu zaman mülkiyyətçinin mənafe üstünlüyü dəqiq ifadə edilməmişdir və onun hərəkətlərinin zəruriliyi əsaslı deyildir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 152.7-ci maddəsinə əsasən istifadə hüququna şəxsin öz əşyasından istifadə etməməsi imkanı da daxildir. Əgər əşyanın tətbiq edilməməsi və ya ona qulluq olunmaması ictimai mənafelərə qəsd edirsə, istifadə və ya qulluq və saxlama vəzifəsi müəyyənləşdirilə bilər. Bu halda mülkiyyətçinin üzərinə həmin vəzifələri özü icra etmək və ya müvafiq muzd müqabilində əşyanı başqa şəxslərin istifadəsinə vermək vəzifəsi qoyula bilər.

Beləliklə, istifadə hüququna görə, hər hansı əmlakın mülkiyyətçisi öz mülkiyyət hüququndan istifadə edərək, müəyyən şərtlər çərçivəsində (əvəzli və ya əvəzsiz) həmin əmlakı istifadəyə götürmək istəyənin istifadəsinə verir, istifadəyə götürən isə həmin əmlakı vaxtı çatanda mülkiyyətçiyə qaytarmağı öhdəsinə götürür. Əmlakı istifadəyə (əvəzli və ya əvəzsiz) götürən şəxs, istifadəyə götürdüyü əmlakdan onunla bağlanan müqaviləyə əsasən, həmin müqavilədə göstərilənlərdən savayı, əmlakdan başqa təyinatla istifadə etmək, kiməsə bağışlamaq, üçüncü şəxsin istifadəsinə vermək və ya özgəninkiləşdirmək hüququ yaranmır. Yəni əmlakın mülkiyyətçisi özündə həmin əmlaka dair sahiblik və sərəncam vermək hüququnu saxlamaqla yalnız əmlakla bağlı istifadə hüququnu digər şəxsə vermiş olur. Əmlak istifadədə olduğu müddət ərzində isə, əmlakın adi saxlanması və qulluq edilməsi üçün zəruri olan xərclərin çəkilməsi əmlakı istifadəyə götürən şəxsin üzərinə qoyulur. İstifadəyə verilən əmlakın mülkiyyətçisi əmlakı istifadəyə götürən şəxs qarşısında yalnız qəsdən və ya kobud ehtiyatsızlıq üzündən törədilmiş əməllər və ya qüsurlar üçün məsuliyyət daşıya bilər. Bu o deməkdir ki, mülkiyyətçi sadə ehtiyatsızlığa görə məsuliyyətə cəlb edilə bilməz. Mülkiyyətçi üçüncü şəxslərin hər hansı hüquqlarının və ya iddialarının olduğunu və ya istifadəyə verilmiş əşyanın hər hansı qüsurunu qəsdən gizlədirsə, bunun nəticəsində əmələ gələn zərəri əmlakı istifadəyə götürənə ödəməyə borcludur. Əmlakı istifadəyə götürən şəxs, istifadəyə götürdüyü əmlakın müqavilə üzrə istifadəsi çərçivəsində dəyişməsi və ya pisləşməsi üçün isə məsuliyyət daşımır.

İstifadə hüququndan fərqli olaraq Mülki Məcəllənin 152.8-ci maddəsində «mülkiyyətçi öz əmlakını başqa şəxsin etibarnaməli idarəçiliyinə (etibarnaməli idarəçi) verə bilər» hüququ da tanınmışdır. Belə ki, həmin maddəyə əsasən, mülkiyyətçi öz əmlakını başqa şəxsin etibarnaməli idarəçiliyinə (etibarnaməli idarəçi) verə bilər. Əmlakın etibarnaməli idarəçiliyə verilməsi mülkiyyət hüququnun etibarnaməli idarəçiyə keçməsinə səbəb olmur; o, əmlakı mülkiyyətçinin və ya mülkiyyətçinin göstərdiyi üçüncü şəxsin mənafeyi naminə idarə etməlidir. Bu o deməkdir ki, yenə də əmlakın mülkiyyətçisi dəyişməz olaraq qalır. Yəni əmlaka faktik sahibliyi həyata keçirməyin hüquqi cəhətdən təmin edilmiş imkan - sahiblik hüququ və əmlakın hüquqi müqəddəratını təyin etməyin hüquqi cəhətdən təmin edilmiş imkan - sərəncam hüququ yenə də mülkiyyətçiyə məxsusdur. Yalnız əmlakdan istifadə hüququ başqa şəxsə etibarnaməli idarəçiliyə (etibarnaməli idarəçi) verilmək yolu ilə həyata keçirilmişdir. Bunun daha aydın başa düşülməsi üçün isə aşağıdakı bir misalı nəzərinizə çatdırıram:

2010-cu ildə «A» şirkəti «B» şirkətindən 500 min manat məbləğində 5 il müddətinə qaytarmaq şərtilə borc pul vəsaiti alır. Alınmış həmin borc pulun müqabilində «A» şirkəti iki il müddəti ərzində özü üçün böyük bir istehsal sahəsi yaradır və 2012-ci ildən başlayaraq həmin sahə «A» şirkətinin mülkiyyətində olaraq tam gücü ilə fəaliyyətə başlayır. Lakin borcun verilmə müddəti 2015-ci ildə bitməsinə baxmayaraq «A» şirkətinin «B» şirkətinə faizlərdə daxil olmaqla 300 min manat məbləğində qaytarılmamış borcu qalır. Belə olan halda «A» şirkəti ilə «B» şirkəti arasında etibarnaməli idarəçilik müqaviləsi bağlanaraq, «A» şirkətinin mülkiyyətində olan istehsal sahəsi 7 illik «B» şirkətinin etibarnaməli idarəçiliyinə verilir. Bu müddət ərzində müəssisənin bütün idarəçiliyi «B» şirkətinə etibar edilir və həmin müddətdə «B» şirkəti istehsal sahəsinin etibarnaməli idarətməklə «A» şirkətinin ona olan borcunu geri qaytarılmasını öz üzərinə götürür və müəssisənin təyinatı üzrə istifadə edilməsinə «A» şirkəti qarşısında tam cavabdehlik daşıyır. Yəni «B» şirkəti, istehsal sahəsinin mülkiyyətçisinin mənafeyi («A» şirkətinin yaranmış borcların qaytarılması) naminə idarə etməlidir. Bu fəaliyyət nəticəsində isə yaranmış məcburi dövlət ödənişlərinin yerinə yetirilməsinə də bütün cavabdehlik «B» şirkətinin üzərində olur.

Beləliklə, istifadə hüququndan fərqli olaraq etibarnaməli idarəçilikdə, etibarnaməli idarəçi əmlakı mülkiyyətçinin və ya mülkiyyətçinin göstərdiyi üçüncü şəxsin mənafeyi naminə idarə etməyi öhdəsinə götürür.

**Əmlakın «idarəetməyə verilməsi» və «icarəyə verilməsi» anlayışlarına audit nöqteyi nəzərindən şərh**

- İcarəyə götürən istifadə hüququ əldə edir və icarəyə götürdüyü əmlakdan öz təsərrüfat fəaliyyətində istifadə edir. İdarəçiliyə götürən isə idarəetmə hüququ əldə edir və bu hüquqlar çərçivəsində idarəetmə ilə bağlı vəzifələrə aid funksiyaları yerinə yetirir. İdarəetməyə götürülən əmlak onun sahibinə (idarəçiliyə verənə) aid olan təsərrüfat əməliyyatları üçün istifadə olunur, əmlak üzərində idarəçilik səlahiyyətləri (vəkalət) əldə edilir. Əmlakın etibarnaməli idarəçiliyə verilməsi istifadə hüququnun etibarnaməli idarəçiyə keçməsinə səbəb olmur. İdarəyə götürən əmlakı idarəçiliyə verənin mənafeyi naminə idarə edə bilər.
- İcarəyə götürən əmlakı öz iradəsi ilə icarəyə verənlə razılaşdırılmış istiqamətlərdə öz məqsədləri (mənafeyi) üçün istifadə edir və əldə etdiyi gəlir (zərər) icarəyə götürənin sayılır. İcarə (istifadə) zamanı icarəyə götürən əmlakdan istifadədən faydalanır. İdarəyə götürən isə bir başa əmlakdan faydalanmır və idarəetmə zamanı əldə edilən gəlir idarəçiliyə verənin sayılır və idarəçiliyə götürən həmin gəlirdən pay (haqq) almaqla faydalanır.
- İcarəyə verən, əmlakı icarəyə götürənə əvəzli istifadəyə verdiyinə görə icarə haqqı alır. İdarəçiliyə götürən isə idarəçiliyə verənə xidmət göstərmiş olur, idarəetməyə verənin idarəçiliklə bağlı etməli olduğu funksiyaları yerinə yetirir və göstərdiyi xidmətin əvəzində haqq alır. Bunu, idarəçiliyə götürən tərəfindən idarəetməyə verənə göstərilən «idarəetmə xidmətlərinin» dəyəri kimi də qiymətləndirmək olar.
- İcarəyə götürən icarə prosesində sifarişçidir, idarəçiliyə götürən (etibar edilən) isə idarəetmə prosesində icraçıdır. Yəni icarəyə götürən icarə haqqı ödəyir, idarəçiliyə götürən isə əksinə, xidmət haqqı (pay) alır.
- Əmlak icarəyə götürənin istifadəsində olan müddətdə əmlak vasitəsilə (əmlakın təsiri ilə) yaranan bütün gəlir və xərcləri təsdiq edən sənədləşmələr icarəyə götürənin adına rəsmiləşdirilir. İdarəçiliyə götürənin idarəetməsi zamanı isə idarəçiliyə götürülən əmlakla bağlı baş vermiş bütün təsərrüfat əməliyyatları idarəçiliyə verənin adına rəsmiləşdirilir və bütün (vergi, sosial sığorta və s.) məsuliyyət idarəçiliyə verənin üzərinə düşür. Amma bağlanılmış müqaviləyə əsasən həmin məsuliyyət idarəçiliyə verənin iddiası ilə idarəçiliyə götürənin üzərinə qoyula bilər.
- İdarəçilik xidmətlərinin göstərilməsi üzrə xidmət haqqı, o cümlədən, əmlakın idarəçiliyi nəticəsində idarəçiliyə verənin əldə etdiyi gəlirin müəyyən faizi kimi təyin edilə bilər. İcarə haqqı isə razılaşdırılmış müddətlərdə müəyyən dövr üzrə əmlakdan əvəzli istifadə (icarə) haqqı kimi təyin edilir.
- İdarəetmə xidmətlərindən idarəçiliyə verənin əldə etdiyi gəlirlər ümumi qaydada vergiyə cəlb olunur. O cümlədən sadələşdirilmiş vergi tətbiq oluna bilər. İcarə haqqından isə ƏDV, mənfəət vergisi və 14% gəlir vergisi hesablana bilər, sadələşdirilmiş vergitutma sistemi tətbiq oluna bilməz.
- İcarənin sənədləşməsi icarə müqaviləsi bağlanılmaqla həyata keçirilir. İdarəetmənin sənədləşməsi isə idarəçiliyə götürənin səlahiyyətlərinin göstərildiyi yazılı formada bağlanmış müqavilə əsasında və ya etibarnamə əsasında həyata keçirilir. Əmlak idarəçiliyə etibarnamə ilə də verilə bilər və bu halda idarəçiliyə götürən üçüncü şəxslər qarşısında vəkalətli şəxs kimi sayılır.

Hörətli oxucular, qəzetimizin növbəti sayında o ümlədən, etibarnamə əsasında avtonəqliyyat vasitələrini idarə edən (sürən) fiziki şəxslərin vergi məsuliyyəti barədə də təhlillərimizi dərc edəcəyik.

# Bankların idarə olunmasında yeni qaydalar tətbiq ediləcək

Bu günlərdə «Banklar haqqında» Qanuna əlavə və dəyişikliklərin edilməsi ilə bağlı qanun layihəsi Milli Məclisin plenar iclasında müzakirə olunaraq təsdiqlənib. Qanunda səhmdarların ümumi yığıncağının müstəsna səlahiyyətlərində edilən yeniliyə əsasən, banka aidiyyəti olan şəxslə dəyəri bankın aktivlərinin 5%-ni və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar bank tərəfindən cəlb edilmiş müstəqil auditorun rəyi və səsvermədə iştirak etmək hüququ olan səhmdarların ümumi yığıncağının sadə səs çoxluğu ilə qəbul ediləcək. Müşahidə Şurasının səlahiyyətlərinə də eyni məzmunda əlavə edilib.

«TuranBank» Audit Komitəsinin sədri Çingiz Ağayev qeyd edib ki, Qanunun 24.3-cü maddəsinə əlavə edilmiş yeni bəndə əsasən, banka aidiyyəti şəxslərlə bank arasında bankın aktivlərinin 5 faizi və ondan yuxarı həcmdə əqdlər üçün iki vacib halın olması lazımdır: 1) kənar auditorun rəyi; 2) səhmdarların ümumi yığıncağının qərarı. Auditor rəyi alınmadan bu barədə qərar qəbul edilə bilməz. Aidiyyəti şəxslər mənafeləri ilə bağlı qərarların müzakirəsində iştirak edə bilməz. Beləliklə, aidiyyəti şəxslərlə əqdlərin bağlanması səlahiyyətləri aktivlərin 5 faizinədək olduqda Müşahidə Şurasına, 5 faiz və ondan çox olduqda isə Ümumi Yığıncağa həvalə edilib.

Müşahidə Şurası aidiyyəti şəxs qismində çıxış etdikdə bu barədə yazılı qaydada Ümumi yığıncağa, İdarə Heyəti üzvü aidiyyəti şəxs qismində çıxış etdikdə bu barədə Müşahidə Şurasına, Müşahidə Şurası və İdarə Heyəti istisna olmaqla, digər aidiyyəti şəxslər isə Müşahidə Şurasına, o olmadıqda isə İdarə Heyətinə göndərməlidir. Qanunun 1-ci maddəsinin 15-ci abzasında göstərilən «aidiyyəti şəxs adından hərəkət edən şəxs» anlayışı (ümumilikdə həmin abzas) ləğv edilib və qanunda ayrı-ayrı maddələrdən «aidiyyəti şəxs adından hərəkət edən şəxs» anlayışı tamamilə çıxarılıb.

Aktivlərin 5%-dək və 5%-dən çox məbləğdə kreditlərin verilməsini şərtləndirmə həmin şəxslərə kreditvermə səlahiyyətinin bölgüsü ilə bağlıdır. Yəni 40.1.2-ci maddədə göstərilən şərtlər olduğu kimi qüvvəsində qalır. Dəyişikliyin mahiyyəti ondan ibarətdir ki, banka aidiyyəti şəxslərlə kredit verilərkən İdarə Heyətinin yekdil qərarı artıq tələb olunmur və verilən kreditlərin məbləği məcmu kapital göstəriciləri üzərindən qoyulan tələblə yanaşı (bankın məcmu kapitalının 10 faizinə bərabər məbləği, fiziki şəxs üçün isə 3 faizinə bərabər məbləği keçdikdə), aktivlər üzərindən qoyulan tələb (aktivlərin 5%-dək və 5%-dən çox) tələbi də əlavə olunub. Bu o deməkdir ki, bankın balansının quruluşundan asılı olaraq səlahiyyətlər xalis aktivlərin 5%-dən və məcmu kapitala olan tələb üzərindən qoyulan tələbin heç birini keçməməlidir.

Çingiz Ağayev inzibati xətalarla bağlı məsələyə aydınlıq gətirərək burada iki əsas məqamın olduğunu nəzərə çatdırdı: «1) Ədin bağlanması qaydalarının pozulması dedikdə «Banklar haqqında» qanunun 40-cı maddəsinin və həmin maddə ilə əlaqədar digər maddələrin tələblərinin pozulması nəzərdə tutulur. 2) Əqdlərlə əlaqədar qanunla müəyyən edilmiş qaydada məlumatın verilməməsi dedikdə - özünün aidiyyəti şəxs olması barədə məlumatı Ümumi Yığıncağa, Müşahidə Şurasına və İdarə Heyətinə verməməsi başa düşülür. Qanunun 40.2-ci maddəsinin tələbləri pozulmaqla verilən kredit dərhal qaytarılmalıdır. Aktivlərin 5%-dək məbləğdə kreditlər üçün qərarlar Müşahidə Şurası, 5%-dən yuxarı olduqda bu barədə qərarlar (5% də daxil olmaqla) Ümumi Yığıncaq tərəfindən qəbul edilməlidir. Aktivlərin 5 faizindən yuxarı məbləğdə kreditlərin verilməsi üçün hökmən kənar auditorun rəyi alınmalı və kredit müraciəti digər sənədlər və auditor rəyi qərar qəbul edilməsi üçün Ümumi Yığıncağa təqdim edilməlidir. Aktivlərin 5 faizinədək məbləğdə kreditlərin verilməsinə qərar qəbuletmə səlahiyyətinin Müşahidə Şurası tərəfindən həyata keçirilməsi üçün bu barədə Ümumi Yığıncağın həvalə qərarının olmasını məqsədəuyğun hesab edirik (məcburi tələb deyildir). Bankın aktivlərinin daimi artıb-azalması tendensiyası nəzərdə saxlanılmalıdır. Belə ki, Müşahidə Şurasının aidiyyəti şəxslərə kredit vermə səlahiyyəti (limiti) aktivlərin 5 faizindən çox olmamalıdır. Bu hal gələcəkdə kredit müqaviləsinin etibarsızlığı (səlahiyyət həddini aşma) və Bankın Palata tərəfindən cərimələnməsi ilə nəticələnə bilər».

Ç.Ağayev onu da qeyd etdi ki, bu dəyişikliklə əsas məqsəd bankların korporativ idarə edilməsini sərtləşdirməkdir.




*Bankların dayanıqlılığı və bazar əhəmiyyəti nəzərə alınmaqla hər birinə münasibətdə fərdi planlar hazırlanır*

İqtisadçı ekspert İldırım Qurbanovun sözlərinə görə, aktivlərin 10%-dən 5%-ə endirilməsi bank sektorunda son dövrlərdə baş vermiş mənfi proseslərin qarşısının alınmasına xidmət edərək, bu sektor üçün bir töhfə sayıla bilər.

Bu günlərdə Maliyyə Bazarları Nəzarət Palatası da banklarda yoxlamalar keçirib. Əsas məqsəd hazırda bankların vəziyyətini dəqiq qiymətləndirmək olub.

Palatanın Direktorlar Şurasının sədr müşaviri Rüfət Abbasov bildirib ki, Palata cəmi 2 ay fəaliyyət göstərməsinə baxmayaraq, maliyyə sektorunun uzunmüddətli inkişafını təmin etmək üçün əsaslı tədbirlər həyata keçirir: «Ölkədə fəaliyyət göstərən bankların diaqnostikası aparılıb. Dəqiqləşdirilmiş məlumatlar əsasında onlarda stress-testlər edilib. Yoxlamanın nəticəsi olaraq bankların dayanıqlılığı və bazar əhəmiyyəti nəzərə alınmaqla hər birinə münasibətdə fərdi planlar hazırlanır. İndiki mərhələdə əsas məqsəd bankların risk menecmentinin təkmilləşdirilməsinə və yeni iqtisadi situasiyaya uyğunlaşdırılmasına nail olmaqdır. Bank nəzarət sistemində olan dəyişikliklər sektora davamlı və hərtərəfli nəzarətin həyata keçirilməsinə, investorların və istehlakçıların hüquqlarının qorunmasına yönəlib».

**Fəxriyyə İKRAMQIZI**

beynəlxalq panoram



# Bolqarıstanda turizm obyektlərinə nəzarət gücləndirilib

Ölkənin Gəlirlər üzrə Milli Agentliyinin mətbuat katibi Rosen Bıçvarov bəyan etmişdir ki, bu il agentliyinin əməkdaşları vergilərin və yığımların yerli otel, restoran və digər əyləncə müəssisələri sahibləri tərəfindən düzgün ödənildiyini yoxlamaq üçün Qara dəniz kurortlarına göndərilmişlər. Artıq vergi əməkdaşları Burqas və Varna şəhərlərinin hava limanlarında ölkəyə gələn turistlərin sayını qeydiyyata almağa başlamışlar ki, onlardan tutulan vergilərin real gəlirlərlə müqayisəsini aparmaq mümkün olsun. Gəlirlər Agentliyinin məlumatına görə, bu il ölkədəki hər bir kassa aparatı nəzarətdə olacaq. Qeyd edilmişdir ki, Bolqarıstanın vergi xidməti bu il yalnız bir mövsüm üçün təşkil edilmiş turizm firmalarına xüsusi diqqət yetirəcək. Artıq ölkədə vergi yayındırmaqda şübhəli bilinən və düzgün bəyannamələr təqdim etməyən firmaların yoxlanılmasına başlanılmışdır.

Hökumət rəsmisinin sözlərinə görə, turizm firmalarının əksəriyyəti bəyannamədə Bolqarıstan qanunçuluğunda nəzərdə tutulan minimal gəlir həddini qeyd etsə də, ən bahalı daşınmaz əmlak alırlar. R.Bıçvarovun açıqlamasında dövriyyəsini minimal göstərən, lakin bahalı əmlak alan bir sıra müəssisələrin adları çəkilmişdir.

# Ukraynada əmlak vergisi tətbiq olunur

İyul ayının 1-dək torpaq sahələri istisna olmaqla, hər hansı daşınmaz əmlak sahibi olan Ukrayna vətəndaşları 2015-ci ilə aid verginin ödənilməsi barədə bildiriş və ödəniş rekvizitlərini alacaqlar. Mətbuatın yazdığına görə, həmin sənədi aldıqdan sonra vergilərin ödənilməsi üçün vətəndaşlara 60 gün vaxt veriləcək. «Dəbdəbə» vergisini əmlak sahiblərinin hamısı ödəməyəcək. Hökumətin açıqlamasında bildirilmişdir ki, bu verginin məbləği barədə qərarı şəhər, qəsəbə və kənd sovetləri çıxardacaqlar. Verginin dərəcəsi tədricən qaldırılacaq. Bu il hər kvadratmetr sahə üçün vergi minimal əməkhaqqının 2 faizindən artıq olmayacaq. Gələn ildən isə vergi dərəcəsinin son həddi tətbiq olunacaq və minimal əməkhaqqının 3 faizinə çatdırılacaq. Böyük olmayan evlərin (120 kvadratmetrədək) və mənzillərin (60 kvadratmetrədək) sahibləri üçün əvvəlki güzəştlər qüvvədə qalır. Hesablamalara görə, Ukraynanın 350 min əmlak sahibi əmlak vergisi ödəyəcək.

# Qazaxıstanın bütün vətəndaşları bəyannamə təqdim edəcəklər

Maliyyə Nazirliyinin rəsmisi bildirmişdir ki, 2017-ci ildə ölkənin 2 milyon vətəndaşı bəyannamə təqdim edəcək, 2020-ci ildə isə bəyannamə təqdim edənlərin sayı 12 milyona çatacaq. Hələlik ilk mərhələdə dövlət qulluqçularının, milli şirkətlərin, dövlət müəssisələrində çalışanların bəyannamə təqdim etmələri nəzərdə tutulur. Qeyd edilmişdir ki, Qazaxıstanın həddi-büluğa çatmış bütün vətəndaşları, eləcə də bu ölkədə yaşamaq hüququ olan şəxslərin hamısı bəyannamə verməyə borcludurlar. Bundan əlavə, dövlət qeydiyyatında olan əmlaka və 40 minimum əməkhaqqı məbləğindən artıq bank yığımına malik həddi-buluğa çatmamış şəxslər də özlərinin gəlirləri barədə bəyannamə verəcəklər. Maliyyə Nazirlyi rəsmisinin sözlərinə görə, Qazaxıstan ərazisində əmlakı olan və ya ticarət sövdələşmələri aparan, bunları dövlət qeydiyyatına aldıran xarici vətəndaşlar da götürdükləri gəlir və ödədikləri vergilər barədə icbari bəyannamə təqdim etməlidirlər. Gəlirlər haqqında bəyannamələr 2 növə - müxtəsər və geniş bəyannamələrə ayrılır.



# Dünya üzrə ÜDM-in artım proqnozu aşağı salınıb

Dünya Bankı (DB) ekspertlərinin qiymətləndirməsinə görə, dünya iqtisadiyyatı zəif artım dövrünün uzanması ilə bağlı bir sıra aşkar risklərlə üzləşməkdədir. DB öz son hesabatında qlobal iqtisadiyyatın 2016-2018-ci illər üzrə artım proqnozunu aşağı salmış, qlobal iqtisadi artım perspektivinin zəif olduğunu qeyd etmişdir. «İnkişaf etməkdə olan ölkələrin rastlaşdıqları problemlərin bəziləri inkişaf etmiş ölkələrdəki iqtisadi artımın zəifliyinin, maliyyə şərtlərinin sərtləşdirilməsinin və xammalın qiymətlərinin aşağı olmasının nəticəsidir. İdxalçı ölkələr daha ciddi və davamlı iqtisadi çağırışlara cavab verməli olduqlarına görə neft və digər mühüm xammal ixrac edən ölkələr bu prosesdən daha güclü ziyan görürlər», - DB-nin «Qlobal iqtisadi perspektivlər» adlı hesabatında göstərilmişdir. Hesabatda qeyd edilmişdir ki, dünya iqtisadiyyatının aşkar risklərlə qarşılaşmasının səbəblərindən biri zəif artım dövrünün uzanması ilə əlaqədardır.

İyun ayı üzrə iqtisadi qiymətləndirmə bədbinliklə müşayiət olunmuşdur. DB-nin iyun proqnozuna əsasən, qlobal iqtisadiyyat 2016-cı ildə də 2015-ci ildəki kimi cəmi 2,4 faiz artacaq. Burada müsbət amil yalnız odur ki, xammal idxal edən ölkələr iqtisadi artımın nisbətən yüksək tempini saxlaya biləcəklər. Çünki xammalın qiymətinin aşağı olması davam etməkdədir. Digər tərəfdənsə xammal ixracatçıları problemlərlə üzləşməkdə davam edəcəklər. Buna baxmayaraq, xammalın qiymətlərinin sabitləşməsi, eləcə də iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı görülən tədbirlər nəticəsində müəyyən müsbət dəyişikliklər də gözləmək mümkündür.

DB qlobal iqtisadiyyatın artım tempinin 2017-ci ildə 2,8 faiz, 2018-ci ildə isə 3 faiz olacağını proqnozlaşdırmışdır. Bankın yanvarda irəli sürdüyü proqnoza əsasən, qlobal iqtisadiyyatın artımı bu il üzrə 2,9 faiz, 2017-ci il üzrə 3,1 faiz, 2018-ci il üzrə 3,1 faiz nəzərdə tutulmuşdu.

Dünya iqtisadiyyatının ləng tempdə artması gözlənilsə də, bu artımı poza biləcək risklər də vurğulanmışdır. Həmin risklərə yeni yaranmaqda olan bazarların artımının ləngiməsi, maliyyə bazarlarındakı gözlənilməz proseslər, geosiyasi gərginliyin artması, inkişaf etmiş ölkələrdəki aktivliyin zəifləməsi, eləcə də artımın stimullaşdırılması üçün görülən tədbirlərin effektivliyinə etibarın azalması daxildir. DB ekspertlərinin şərhinə görə, bu risklər bir çox ölkələrdə, xüsusilə də xammal ixrac edən dövlətlərdə mühafizə buferlərinin əhəmiyyətli şəkildə zəifləməsi ilə müşayiət olunur. DB ABŞ-ın ÜDM-nin 2016-cı il üzrə artım proqnozunu 2,7 faizdən 1,9 faizə, 2017-ci il üçün 2,4 faizdən 2,2 faizə, 2018-ci il üçünsə 2,2 faizdən 2,1 faizə endirmişdir. Avrozonanın iqtisadiyyatının isə bu il 1,6 faiz, gələn il 1,6 faiz, 2018-ci ildə isə bundan bir qədər az - 1.5 faiz artım proqnozlaşdırılır. DB-nın yanvar proqnozunda bu rəqəmlər yüksək göstərilmişdi: müvafiq olaraq 1,7 faiz, 1,7 faiz, 1,6 faiz. Bunlardan əlavə, DB Yaponiyanın iqtisadi artım proqnozunu əsaslı şəkildə aşağı salmışdır: 1,3 faizdən 0,5 faizə. Yaponiyanın qarşıdakı 2 il üçün artım proqnozu da aşağı salınmışdır.

İnkişaf etməkdə olan ölkələrin bu il üçün iqtisadi artımı 3,5 faiz, 2017-ci il üçün 4,4 faiz, 2018-ci il üçün 4,7 faiz proqnozlaşdırılmışdır. Dünya Bankının proqnozunda Çin iqtisadiyyatı 2016 və 2017-ci illərdə müvafiq olaraq 6,7 faiz və 6,5 faiz artım nümayiş etdirəcək. 2018-ci ildə isə bu rəqəm 6,3 faizə enəcək.

Bank həmçinin Böyük Britaniyanın iqtisadi artım proqnozunu da aşağı salmışdır: 2 faiz, 2,1 faiz və 2,1 faiz - ilin əvvəlində bu rəqəmlərin 2,4 faiz, 2,2 faiz və 2,1 faiz olacağı proqnozlaşdırılmışdı.

# Yaponiya dolların məzənnəsinin düşməsinə qarşı tədbir görür




«Rəsmi Tokio dolların məzənnəsinin düşməsinin və milli valyuta yenin bahalaşmasının qarşısını almaq üçün qəti addımlar atmağa hazırdır». Bu sözləri iyunun 17-də təşkil edilən mətbuat konfransında Yaponiya Baş nazirinin müavini, maliyyə naziri Taro Aso deyib.

T.Aso bildirib ki, hazırda bazarda birtərəfli qaydada spekulyativ hərəkət müşahidə olunur. Əgər lazım gələrsə, biz indiyə qədər olduğundan daha qəti addımlar atacağıq.

Bu ərəfədə dolların məzənnəsi milli valyuta yenə nisbətən son 20 ayda ən aşağı həddə düşüb. Bu, ilk növbədə Böyük Britaniyanın Avropa İttifaqından çıxması təhlükəsi və həmçinin ABŞ Federal Ehtiyat Sisteminin ölkə iqtisadiyyatında baş verən problemlərlə bağlı kredit tariflərini artırmaq istəməməsi ilə əlaqələndirilir.

Yenin məzənnəsinin qalxmasının digər səbəbi kimi, Yaponiya Bankının ölkədə pul kütləsini artırmaq niyyətindən imtina etməsi göstərilir.

krossvord



**Yuxarıdan aşağı:** 1.İtalyan intibahının ən məşhur rəssamı; 2.Kubanın paytaxtı; 3.Antonio Salyerinin operası; 4.Yumoristik məzmun daşıyan kiçik hadisə; 5.Ədədin özü-özünə vurulmasından alınan hasil; 6.Yerin dərin qatlarında yüksək temperatur və təzyiq şəraitində əmələ gələn mürəkkəb tərkibli od kütləsi; 7.Qırğız və rus dillərində yazmış böyük qırğız yazıçısı; 13.Dünya bəşər irsi siyahısına daxil olmuş və əsasən Almaniya ərazisindən keçən çay; 15.Xırda doğranmış ət, kərə yağı və undan alınan, düyü ilə yeyilən raqu; 16.İslam dinində müsəlmanların Allaha kütləvi və tək ibadətləri üçün nəzərdə tutulmuş memarlıq tikilisi; 17.Musiqi termini; 18.İndiki Biləsuvar rayonunun əvvəlki adı; 20.Yazıçı, publisist, geneoloq, Avrasiya Yazıçılar, Azərbaycan Jurnalistlər birliklərinin, Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin üzvü; 21.Xüsusi, ayrıca buraxılış üzrə yerləşdirilən qiymətli kağızlar, istiqrazlar seriyası.

**Soldan sağa:** 1.Su, şəkər, nişastadan hazırlanmış türk şirniyyatı; 8.Öndə gedən, qabaqcıl, lider; 9.Kimyəvi element (qaz); 10.Olimpiya çempionu Azərbaycan cüdoçusunun adı; 11.Avtomobil markası (sportkar); 12.Düzbucaqlı üçbucağın düz bucağı əmələ gətirən tərəflərin hər biri; 14.Detalları birləşdirmək üçün işlədilən silindr mil; 19.«Neftçi» FK, Moskvanın «Dinamo» FK komandalarında oynamış azərbaycanlı hücumçunun adı. SSRİ-nin əməkdar idman ustası (1960), SSRİ-nin əməkdar məşqçisi (1990); 21.1889-1913-cü illərdə Efiopiya imperatriçası; 22.Atmosferi, suyu, qida məhsullarını çirkləndirən ağır metal; 23.Uzaq məsafəli ikiqanadlı raket; 24.Ensiz; 25.LCD televizoru divardan asmaq üçün xüsusi asqı detalı.



*İtalyan intibahının ən məşhur əsərlərindən biri, «Sikstin Madonnası»ndan fraqment*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Hürrəm *(Sultan)*; 2.Səyavuş *(Şəfiyev)*; 3.Yavər *(Kələntərli)*; 4.Alyans; 5.Amman; 6.Urmiya; 9.Amon; 13.Əsna; 15.Samuray; 16.Adrian; 17.Minarə; 18.Vəsait; 20.Bəbir; 21.Hobbi. **Soldan sağa:** 1.Hüseynağa *(Sadıqov)*; 5.ATU; 7.Reynveyn; 8.İmam; 10.Ənvər Çingizoğlu *(Fərəcov)*; 11.Numeniy; 12.Əşrəf *(Yusifzadə)*; 14.Knoss; 19.Dübəndi; 21.Həmzə; 22.İrbe; 23.Kanberra; 24.Nar; 25.Ədəbiyyat.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 10000

idman

# «Synergy Baku» Serbiyadan qələbə ilə qayıtdı

«Synergy Baku» kontinental komandası Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) 2.2 kateqoriyalı «Tour de Serbia» yarışını uğurlu nəticə ilə başa vurub. 21 kollektivin iştirak etdiyi yarışda «Synergy Baku» həm komanda hesabında çempion olub, həm də velosipedçimiz Matey Müqerli ümumi təsnifatın qalibi adını qazanıb. Yarışın üçüncü mərhələsinin qalibi olmaqla ümumi təsnifatda liderliyə yüksələn M.Müqerli bu üstünlüyünü sonadək qoruyub və bununla da «Tour of Serbia»nın ən yaxşı velosipedçisi üçün nəzərdə tutulan «sarı köynəyi» qazanıb.

Yeri gəlmişkən, ümumi təsnifatda komandamızın digər üzvü Matiya Kvasina 3-cü olub. Komanda hesabına gəlincə, «Synergy Baku» mövsümdə 3-cü çempionluq sevinci yaşayıb. Apreldə «Tour of Croatia», mayda isə «Tour d'Azerbaidjan» yarışlarından sonra Serbiya Turu da komandamızın birinci yeri tutması ilə yadda qalıb.




# Mariya Stadnik «Poland Open»in qalibi oldu



Polşanın Spala şəhərində qadın güləşi üzrə «Poland Open» XX beynəlxalq turniri keçirilib. Yarışda baş məşqçi Semyon Çterev və böyük məşqçi Nazim Əlicanovun rəhbərliyi altında Azərbaycanın milli komandasının üzvləri Mariya Stadnik (48 kq), Anjela Doroqan (53 kq), Nataliya Sinişin, Yuliya Ratkeviç və Alyona Kolesnik (həmısı 58 kq) iştirak ediblər. Güləşçilərimiz turniri 1 qızıl və 2 bürünc medalla başa vurublar.

48 kiloqram çəkidə komandamızın lideri Mariya Stadnik bütün rəqiblərindən üstün olub və yarışların qızıl medalına yiyələnib. Bürünc medalları isə yığmamıza Anjela Doroqan (53 kq) və Nataliya Sinişin (58 kq) qazandırıb. Nataliya Sinişin üçüncü yer uğrunda görüşdə komanda yoldaşı Yuliya Ratkeviçdən üstün olub.

# Gənc güləşçilərimiz Avropa çempionatında

İyunun 21-də Rumıniyanın paytaxtı Buxarest şəhərində gənclər arasında güləş üzrə Avropa çempionatına start verilib. Çempionatın ilk iki günündə yunan-Roma güləşçiləri mübarizə aparıblar. Azərbaycan yığma komandasını böyük məşqçi Şaban Donat, məşqçilər Zöhrab Abbasov və Turac Hüseynlinin rəhbərliyi altında Azər Nəsibli (50 kq), Nofəl Babayev (55 kq), Mikayıl Rəhmanov (60 kq), Sənan Süleymanov (66 kq), Mehrac Kərimov (74 kq), İslam Abbasov (84 kq), Soslan Fanziyev (96 kq) və Adəm Cəlilov (120 kq) təmsil edirlər.

İyunun 23-24-də çempionatda gənc qızlar mübarizəyə qoşulacaq. Böyük məşqçi Konstantin Konorev və məşqçi Aslan Ağayevin rəhbərliyi altında çempionatda ölkəmizi Zelfira Ələkbərli (44 kq), Sona Tumarxanova (48 kq), Səbinə Həmzəlzadə (51 kq), Şəbnəm Əhmədova (55 kq) və Elis Manolova (67 kq) təmsil edəcəklər.

Avropa çempionatının son iki günündə mübarizəyə sərbəst güləşçilər qoşulacaq. Yığma komandanın böyük məşqçisi Əsgərxan Novruzov və məşqçi Rövşən Hacıyevin rəhbərliyi altında çempionatda Əliabbas Rzazadə (50 kq), Mahir Əmiraslanov (55 kq), Əli Rəhimzadə (60 kq), Fazil Həsənov (66 kq), Murad Süleymanov (74 kq), Hacımurad Məhəmmədsəidov (84 kq), Məhəmmədrəsul Qazıməhəmmədov (96 kq) və Alimaqomed Alixmoyev (120 kq) birincilik uğrunda yarışacaqlar. Çempionatda görüşlərin idarə edilməsində Azərbaycanı beynəlxalq dərəcəli hakim İntiqam Alıyev təmsil edir.



mozaika



rekord

## Dünyanın ən hündür tropik ağacı

Dünyada elmə məlum olan ən hündür tropik ağac Malayziya meşələrində aşkar edilib. Onun hündürlüyü 89,5 metrdir.

Kembric Universitetinin mütəxəssisləri nəhəng ağacı Malayziya tropik meşələrinin az öyrənilmiş sahəsində uçuş zamanı aşkar ediblər. Şoreya növünə aid olan yarpaqlı sarı meranti (Shorea faguetiana) ağacı əsasən Cənub-Şərqi Asiyada yayılıb. Adətən bu növdən olan ağacların hündürlüyü 45 metrə çatır.

Ağacın hündürlüyünü təyin etmək elə də asan olmayıb. Yerli alpinist ağaca çıxsa da, qartal və arılar ona mane olduğundan keyfiyyətli fotoşəkillər çəkə bilməyib. Bununla belə, alimlər ağacın dəqiq hündürlüyünü ölçə biliblər. Ancaq tapılan ağac dünyanın ən hündür ağacı deyil. Mütləq rekord ABŞ-da bitən sekvoya ağacına (115,2 metr) məxsusdur.

araşdırma

## Göy rəng yuxuya mane olur, yaşıl isə yuxu gətirir

Melanopsinin (görmə prosesində bilavasitə iştirak edən fotopiqment, opsinlərdən biri) bütün heyvanat aləminə təsiri elmə məlumdur. Bu maddə gündüz ritmlərinin formalaşmasında iştirak edir. Alimlər düşünürdülər ki, göy rəng yuxugətirici təsir göstərir, axı onun dalğasının uzunluğu melanopsin piqmentinə daha intensiv təsir göstərir, amma eksperiment bu nəzəriyyəni təkzib edib.



Britaniyanın Oksford Universitetinin bir qrup tədqiqatçısı müxtəlif rənglərin yuxu prosesinə təsirini öyrənməyə çalışıb.

Eksperiment zamanı laboratoriya siçanlarını işıq mənbələri müxtəlif olan qəfəslərə salıblar. Heyvanlar yaşıl işıqda rahat yuxuya gediblər, göy rəng isə əksinə, siçanları qıcıqlandırıb, onları daha da fəallaşdırıb.

Alimlər hesab edirlər ki, nəticə çıxarmaq və bunu insana şamil etmək hələ tezdir. Çox ehtimal ki, bu rənglər insanlara əks təsir göstərir. Axı biz gecələr, gəmiricilər isə gündüzlər yatmağa öyrəşib.

maraqlı

## 4,7 min dollara qarpız

Yaponiyanın Hokkaydo prefekturasının Toma şəhərinin fermerləri məşhur «densuke» növündən olan qara qarpızı 500 min yenə (təqribən 4,7 min dollar) satıblar. Kyodo agentliyinin yaydığı məlumata görə, cari ildə ilk dəfə keçirilən hərracda 260 belə qarpız satılıb. Alıcının qarpızı əldə etmək üçün ödədiyi böyük məbləğə baxmayaraq, bu, həmin qarpız üçün rekord məbləğ sayıla bilməz. Belə ki, 2008-ci ildə «densuke» növünə məxsus belə qarpız 650 min yenə (təqribən 6,1 min dollar) satılmışdı. Tünd yaşıl, demək olar ki, qara rəngdə qabığa malik bu qarpız növü çox sulu və şirin olması ilə seçilir. Toma şəhərində yetişdirilən bu qarpızların hər il bu vaxt hərracı keçirilir. Cari ildə hokkaydolu fermerlər 70 min belə qarpız satmağı planlaşdırırlar ki, onların birinin orta qiyməti 5 min yen (47 dollar) təşkil edəcək.



ədəbiyyat

## Azərbaycan nağılları macar dilində

Macar-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Svetlana Abdullayeva Budapeştdə Azərbaycan nağıllarının macar dilində üçcildliyini nəşr etdirib. Yaxın zamanlarda Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Folklor İnstitutu Nizami adına Ədəbiyyat İnstitutu ilə birgə üçcildliyin təqdimat mərasimini keçirəcək.

Bu barədə Folklor İnstitutunda S.Abdullayeva ilə görüşdə bildirilib. Görüşdə Folklor İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Muxtar İmanov S.Abdullayevanın xaricdə Azərbaycanın, onun mədəniyyətinin və folklorunun təbliği sahəsində gördüyü işlər barədə məlumat verib.

Qeyd olunub ki, əlli ilə yaxındır Macarıstanda yaşayan S.Abdullayeva 101 Azərbaycan nağılını macar dilinə tərcümə edərək 2013-2014-cü illərdə Budapeştdə nəşr etdirib.

Görüşdə mütəxəssislərin marağına səbəb olan bu üçcildliyin nəşri ətrafında fikir mübadiləsi aparılıb.

Tərcüməçi və naşir S.Abdullayeva kitablara salınmış nağılların seçilməsi prinsipləri, tərcümə zamanı qarşılaşdığı çətinliklər və s. barədə ətraflı məlumat verib.

Görüş iştirakçıları bu nəşrin böyük əhəmiyyətini qeyd edib, üçcildliyin Azərbaycan nağıllarının bu həcmdə qeyri-dillərə tərcüməsi sahəsində ilk təcrübə olduğunu vurğulayıblar.



tam ciddi

## «Feysbuk»dan asılı insanlar üçün... klinika

Afrikada ilk dəfə Əlcəzairdə açılan özəl klinikada feysbukdan asılı xəstələrə sağalmaq təklif olunur. Bu tibb ocağı dünyada üçüncüdür. Belə klinikalar Çində və Cənubi Koreyada artıq fəaliyyət göstərir. Klinikada əvvəllər siqaret, narkotik və alkoqol asılılığı olan xəstələri müalicə edən mütəxəssislər çalışırlar. Klinikanın rəhbəri Rauf Boqofa izah edir ki, feysbukdan və digər sosial şəbəkələrdən asılılıq narkomaniya ilə müqayisədə daha ağır nəticələrə gətirib çıxara bilər. İnsanları müalicə etmək üçün həkimlər şəbəkə istifadəçilərinə virtual dünyada deyil, real dünyada yaşamağa yardım edəcək xüsusi proqram hazırlayıblar. Yeri gəlmişkən, sosial şəbəkələrdən tam imtina yəqin ki, alınmayacaq. Bu yaxınlarda Cons Hopkins Universitetinin alimləri həkimlərlə ünsiyyətdə olan pasiyentlər barədə məlumat toplayıblar. Məlum olub ki, rəyi soruşulan pasiyentlərin yarıdan çoxu tibb işçiləri ilə ünsiyyət zamanı sosial şəbəkə və ya elektron poçtdan istifadə edib. Bir çox həkimlər bu üsulu faydasız hesab edirlər.



**Müdriklər deyib ki...**

*«Pessimist hər imkanda çətinlik, optimist isə hər çətinlikdə imkan görür».*

*Uinston Çörçill (1874-1965)*

